# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 28 (3444) Cümə axşamı / 21-27 iyul 2022-ci il Qiyməti 40 qəpik




# Qlobal iqtisadi böhran astanasında

**Dünya yeni qlobal böhran astanasındadır. Bunun anonsunu beynəlxalq maliyyə qurumları da verməkdədir. Məsələn, Beynəlxalq Valyuta Fondunun (BVF) rəhbəri Kristalina Georgieva gələn il qlobal iqtisadi böhranın olacağına dair xəbərdarlıq edib. O, açıqlamasında son iqtisadi məlumatların ikinci rübdə Çin və Rusiya kimi böyük iqtisadiyyatlarda yavaşlama və daralmaya işarə etdiyini söyləyib. ”Risklər artıb, tənəzzül ehtimalını göz ardı edə bilmərik”.**

**BVF rəhbəri 2022 və 2023-cü illərin çətin dövr olacağını vurğulayıb: “2023-cü il üçün tənəzzül riskləri artıb. BVF 2022-ci il üçün daha əvvəl 3,6 faiz açıqlanan qlobal iqtisadi artım proqnozunu yaxın günlərdə aşağıya doğru yenidən nəzərdən keçirəcək. Bu, BVF-nin 2022-ci il üçün artım proqnozunun üçüncü reviziyası olacaq. BVF-nin iyulun son həftəsində 2022 və 2023-cü illər üçün qlobal ÜDM artımı proqnozlarına yenidən baxacaq”.**

**Qeyd edək ki, Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirə dövlət başçısı bu məsələyə də toxunub və prosesə hazır olmağın vacibliyini vurğulayıb: “Onu da deməliyəm, indi çox böyük ehtimallar var ki, dünya iqtisadiyyatı tənəzzülə uğrayacaq. Yəni, ressesiya haqqında mötəbər beynəlxalq qurumlar, maliyyə qurumları artıq bir qaçılmaz fakt kimi danışırlar. Biz də buna hazır olmalıyıq”. Bəs, görəsən, Azərbaycan yeni dünya iqtisadi böhranına nə dərəcədə hazırdır?**



## Azərbaycan nə dərəcədə hazırdır

*Azərbaycan mövcud siyasəti ilə dünya iqtisadiyyatında baş verənlərin ölkə iqtisadiyyatına təsirlərini minimumlaşdırmağa çalışır*

*Pandemiya dövrü baş vermiş neqativ hallar nəticə etibarilə böhranın başlanğıcını qoydu*



**Vüqar Bayramov,**
millət vəkili, iqtisadçı

**■ Məsələni hafta.az-a şərh edən millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib ki, qlobal iqtisadi böhran riski daha da artmaqdadır: “Nəzərə alsaq ki, həm qlobal, həm də inkişaf etmiş ölkələrlə bağlı iqtisadi artım proqnozlarına yenidən baxılaraq həmin proqnozlar azaldılıb. Belə ki, dünya iqtisadiyyatında 2022-ci ildə 4,1 faiz iqtisadi artım proqnozlaşdırılırdı, bu rəqəm 2,9 faizə qədər azaldılıb.**

Eyni zamanda, avrozonada 4 faiz artım proqnozlaşdırılırdı, xüsusən Avrozonada müşahidə olunan ressesiya fonunda bu rəqəm 2,8 faizə qədər aşağı salınıb. Və aparıcı ölkələrdə, eləcə də dünya iqtisadiyyatında iqtisadi artımla bağlı dürüstləşdirmə neqativdir. Bu da təbii ki, qlobal iqtisadiyyatda yeni ressesiyanın yaranması riskini gücləndirir və xüsusən 2022-ci ilin sonu, eləcə də 2023-cü il dünya iqtisadiyyatı üçün daha ağır olacaq. Sözsüz ki, Azərbaycan da dünya iqtisadiyyatının bir elementidir. Azərbaycan mövcud siyasəti ilə dünya iqtisadiyyatında baş verənlərin ölkə iqtisadiyyatına təsirlərini minimumlaşdırmağa çalışır. Və son 6 ayın yekunları da göstərdi ki, Azərbaycan 6,2 faizlik artımla regionda sürətli artıma malik olan ölkələrdəndir. Baxmayaraq ki, qlobal iqtisadi artım faizləri azaldılıb, amma Azərbaycan praktik olaraq sürətli artım faizini qoruyub saxlaya bilib. Bu da təbii ki, xüsusən də qlobal risklərin təsirlərinin minimumlaşdırılması baxımdan vacibdir. Qlobal ressesiya dünyada həm də ərzaq qıtlığı məsələsini daha da gücləndirəcək. Bu baxımdan da Azərbaycan artıq qabaqlayıcı addımlar atır. 2022-ci ilin dürüstləşmiş büdcəsində 200 milyon manata yaxın vəsaitin ərzaq təhlükəsizliyi üçün nəzərdə tutulması bir daha təsdiq edir ki, preventiv olaraq hazırda müşahidə olunan və gələcəkdə dərinləşəcək ərzaq qıtlığının Azərbaycan istehlak bazarına təsirlərinin minimumlaşdırılması siyasəti genişləndirilir.



**Eldəniz Əmirov,**
iqtisadçı-ekspert

Səh. 5

MƏTBUAT - 147

# Bu gün Azərbaycan mətbuatında sistemli inkişaf var



**Cahangir Məmmədli,**
BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, professor

***Onunla, təxminən, bir il əvvəl elə Milli Mətbuatın ildönümü ərəfəsində söhbətləşmişdik. Dediyinə görə, Vətən Müharibəsindən sonra peşə bayramını daha qürurla və yüksək səviyyədə qarşılayır. O, ömrünün böyük hissəsini Azərbaycan jurnalistikasının inkişafına həsr edən bir insandır. İndi də bu istiqamətdə fəaliyyətini sevə-sevə, yorulmadan davam etdirir. Söhbət Bakı Dövlət Universitetinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, professor Cahangir Məmmədlidən gedir.***

*Bu gün mətbuat orqanlarımız Azərbaycanın Zəfər Yürüşünü, Zəfər Bayrağını göylərə qaldıran qurumlardan biridir*

Səh. 6

İQTİSADİYYAT



**İlham Şaban,**
enerji məsələləri üzrə ekspert

■ Bu anlaşma o deməkdir ki, Azərbaycan artıq bazarı özü üçün müəyyənləşdirib

■ Ursula fon der Lyayenunun Bakıda qeyd etdi ki, Azərbaycan sözünə sadiq, stabil bir təchizatçıdır

■ Müasir standartlara uyğun mütəxəssislərin hazırlanması, qabaqcıl texnologiyalara çıxış imkanlarının genişləndirilməsi əsas hədəflərdən olmalıdır

Səh. 3

GÜNÜN FOTOSU...



Bayden Zelenskayanı gül-çiçəklə qarşıladı

GÜNÜN SİTATI

*“İki gün əvvəl Azərbaycanla Anlaşma Memorandumu imzaladıq ki, bu da Avropaya qaz idxalını artırmağa imkan verəcək”*



**Ursula Fon der Lyayen,**
Avropa Komissiyasının Prezidenti

KARİKATURA




Tibbi maska tələbi qayıdır

# Son sözü Silahlı Qüvvələrimiz deyəcək

**Elxan Şıxəliyev,**
hərbi ekspert

Prezidentin verdiyi mesaj bundan ibarətdir ki, bunu ya könüllü edin, ya da bunu sizə məcbur etdirəcəyik.

Səh. 2

STATİSTİKA



**■ Bu ilin yanvar-iyun aylarında Azərbaycanın pərakəndə ticarət şəbəkəsində əczaçılıq məhsulları və tibbi ləvazimatlara istehlakçılar tərəfindən 553,2 mln. manat xərclənib.**

Bu, 2021-ci ilin eyni göstəricisi ilə müqayisədə 27,5% və ya 119,3 mln. manat çoxdur. Bu ilin may göstəricisi ilə müqayisədə iyun satışlarının həcmi 3,1% və ya 3,3 mln. manat artaraq 107,9 mln. manat təşkil edib.



Səh. 7

# İntihara aparan yol

PREZİDENTİN İŞ GÜNÜ

# Prezident Sumqayıta səfər edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Sumqayıt şəhərində olub. Dövlətimizin başçısı əvvəlcə Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib.**

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk Sənaye Parkıdır. Cənubi Qafqazın ən böyük Sənaye Parkının ərazisində neft-kimya, kimya, tikinti materiallarının istehsalı və digər prioritet sənaye sahələri üzrə müəssisələr fəaliyyət göstərir, həmçinin yeni istehsal və emal müəssisələri yaradılır.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Sənaye Parkında ümumi investisiyaların həcmi 3,27 milyard ABŞ dollarından artıq olan 31 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək Sənaye Parkına rezidentlər tərəfindən 3,1 milyard ABŞ dollarına yaxın sərmayə yatırılıb. Qeydiyyata alınmış 31 rezidentdən 17-si artıq fəaliyyət göstərir. Bu gün istifadəyə veriləcək "Glassica" Qapalı Səhmdar Cəmiyyəti və "Azərsulfat" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 19-a çatacaq. Parkın rezidentləri tərəfindən ümumilikdə 5,86 milyard manatdan çox məhsul satışı həyata keçirilib ki, bunun da 2,15 milyard manatdan çox hissəsi (36,7 faiz) ixracın payına düşür.

Diqqətə çatdırıldı ki, Sumqayıt Kimya Sənaye Parkında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika müşahidə olunur. Statistik göstəricilərə əsasən 2021-ci ilin birinci yarısında Sənaye Parkında 794 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2022-ci ilin müvafiq dövründə 52,14 faizdən çox - 1,2 milyard manatlıq məhsul istehsal olunub. İxrac isə ötən ilin birinci yarısı (267,5 milyon manat) ilə müqayisədə 1,9 dəfə artaraq bu ilin altı ayında 508 milyon manat təşkil edib.

Məlumat verildi ki, Sənaye Parkında istehsal olunan məhsullar Türkiyə, Yaponiya, ABŞ, Kanada, İtaliya, Çin, Rusiya, Ukrayna, Belarus, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Finlandiya, Niderland, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, BƏƏ, Livan, İraq və sair ölkələrə ixrac olunur. Əsas göstəricilərdən biri də odur ki, Sumqayıt Kimya Sənaye Parkında 6 mindən çox insan daimi işlə təmin edilib.

Ötən müddətdə sənaye zonalarında ümumilikdə 7,17 milyard manatlıqdan çox məhsul istehsal edilib və bunun 2,3 milyard manatlıq hissəsi (təqribən 32,7 faizi) ixrac olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Sumqayıt Şəhidlər xiyabanında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olub. Dövlət başçısı əvvəlcə Şəhidlər xiyabanında ucaldılmış Qalib Əsgər abidəsinin və Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunan abidənin önünə gül dəstələri qoydu.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə Şəhidlər xiyabanında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Sumqayıt şəhərində 1992-ci ildə salınan, 513 şəhidin uyuduğu Şəhidlər xiyabanı 2021-ci ildə əsaslı şəkildə təmir olunub, burada kompleks yenidənqurma işləri aparılıb. Şəhidlər xiyabanında hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılıb.

Qeyd edildi ki, Şəhidlər xiyabanının ərazisi genişləndirilərək 1,2 hektara çatdırılıb. Şəhidlər xiyabanında yaşıllıq örtüyü salınıb, işıqlandırma sistemi müasirləşdirilib, fəvvarə kompleksi inşa edilib. Burada yenidənqurma işləri çərçivəsində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi yaradılıb, həmçinin inzibati bina inşa olunub.

Şəhidlər xiyabanında Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 144 şəxs haqqında məlumatların əks olunduğu abidə ucaldılıb.

İyulun 20-də 2 saylı Sumqayıt regional "ASAN xidmət" Mərkəzi istifadəyə verilib.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlətimizin başçısına Sumqayıtda 2-ci, ölkə üzrə isə 24-cü olan "ASAN xidmət" Mərkəzində yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, hazırda Sumqayıtda fəaliyyət göstərən 1 saylı regional "ASAN xidmət" Mərkəzi gün ərzində 3 minə qədər vətəndaşa xidmət göstərir. Xidmətlərə artan ciddi tələbat nəzərə alınaraq, Sumqayıtda ikinci regional "ASAN xidmət" Mərkəzi inşa edilib. Ümumilikdə, ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə bu günədək 54 milyona yaxın müraciət daxil olub.

Qeyd edildi ki, 2 saylı Sumqayıt regional Mərkəzi üçün dördmərtəbəli inzibati bina, fəvvarə, iki yerüstü avtomobil dayanacağı, kafe, istirahət və uşaq əyləncə meydançaları yaradılıb. Fasadlarda müasir texnologiyalardan istifadə edilib.

Ülvi Mehdiyev Prezident İlham Əliyevə 2 saylı Sumqayıt "ASAN xidmət" Mərkəzində yaradılan ASAN müraciət, Rəqəmsal dövrdə dövlət xidmətləri və Mərkəzləşdirilmiş kart tədarükü sistemləri barədə məlumat verdi.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Son sözü Silahlı Qüvvələrimiz deyəcək

***İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlət başçısı Silahlı Qüvvələrin gələcək inkişafı, müdafiə xərclərinin artırılması, ölkəmizə qarşı təhdidlər fonunda bu siyasətin davamlı olacağını bir daha vurğuladı. Ali Baş Komandan bildirdi ki, altı ay ərzində hərbi sahədə də islahatlar aparılıb. Yeni silahlı birləşmələr yaradılıb. Yeni kontraktlar imzalanıb, hərbi texnika, silah-sursatlar alınır və alınacaq: "Biz ordu quruculuğu sahəsində öz işlərimizi davam etdiririk. Bizim bu il artan iqtisadi və maliyyə imkanlarımızın bir hissəsi məhz bu məsələlərə istiqamətləndirilib. Büdcəyə əlavələr edildi, dürüstləşmə edildi və orada hərbi xərclər əhəmiyyətli dərəcədə artırıldı. Nə üçün? Deməli, buna əsas var.***

## Təhlil



Biz hərbi xərclərimizi keçən il bu ilin büdcəsi təsdiq olunanda təsbit etmişdik və hesab edirdik ki, bu, kifayətdir. Ancaq sonra, bax, dediyim məsələlərə görə və digər məsələlərə görə, burada demədiyim məsələlərə görə biz hesab edirik ki, hərbi xərcləri artırmaq lazımdır. Bu artım məhz yüksək texnoloji imkanları olan silahların alınmasına xərclənəcək. Mən bunu da demək istəyirəm. Çünki biz görürük ki, yeni imzalanmış kontraktlara ehtiyac var. Ən müasir hərbi texnika və silahların alınması üçün bu il dürüstləşmə zamanı hərbi xərclərimiz artıb. Nə qədər lazımdırsa, o qədər də artıracağıq. Çünki biz müharibə nədir, işğal nədir yaxşı bilirik və təhlükə nədir onu da yaxşı bilirik. Hər an hazır olmalıyıq ki, öz hüququmuzu istənilən yolla təmin edək".

■ **Hərbi ekspert Elxan Şıxəliyev hafta.az-a bildirib ki, Prezidentin son çıxışında Ermənistana mesajlar verilib. O hesab edir ki, Qarabağla bağlı qalan məsələlərin tamamilə çözülməsi, Zəngəzur, Laçın dəhlizlərinin üçtərəfli bəyanat çərçivəsində açılması müharibədənsonrakı kontekstdə qiymətləndirilməlidir.**

"Bu gün Azərbaycanın istəyi tam olaraq Ermənistan tərəfindən yerinə yetirilmir və xüsusən də sərhədlərin tanınması istiqamətində müsbət addımlar atmaq istəmirlər.

Ermənistan Zəngəzur dəhlizi üzərindən hələ ki, heç bir fəaliyyətə başlamayıb. Zamanı uzadırlar və düşünürlər ki, necə 30 il müddətində Qarabağın işğal olunmuş ərazilərindəki problemi uzatdılar, bu prosesi də uzada bilərlər. Siyasi iradə ondan ibarətdir ki, bu məsələlər tez bir zamanda həll edilsin. Əslində ordunun gücləndirilməsi, orduya vəsaitlərin ayrılması, yeni komando briqadaların yaradılması ona hesablanır ki, problemimiz Ermənistanla tam həll olunmayana qədər ordu Ali Baş Komandanın əmrinə hazır vəziyyətdə olmalıdır. Sonrakı mərhələdə əgər Ermənistan həqiqətən də öz öhdəliklərini yerinə yetirmək istəməsə, Azərbaycan silahlı qüvvələri bu problemi birtərəfli qaydada həll eləmək hüququnu özündə saxlayır".

Hərbi ekspert açıq şəkildə bəyan edib ki, əgər Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərindən çıxarmırsa, Azərbaycan bunu hərbi gücün tətbiqi ilə etməlidir. "Əgər Zəngəzur dəhlizinin açılması prosesi Ermənistan tərəfindən yerinə yetirilməsə, yenə hərbi güc vasitəsilə bu problemlər öz həllini tapacaq. Əslində, cənab Prezidentin verdiyi mesaj bundan ibarətdir ki, ya bunu könüllü edin, ya da bunu sizə məcbur etdirəcəyik. Dolayısı ilə bu o deməkdir ki, bizim bu məsələlərin həlli Silahlı Qüvvələrimizin üzərinə düşəcək. Yəni Qarabağda olan erməni silahlıları təmizlənməlidir, bunu ya özlər etməlidir, ya da biz bunu antiterror əməliyyatları çərçivəsində etməliyik. Zəngəzur dəhlizi, sərhədlərin delimitasiyası, demorkasiyası başa çatmalıdır. Azərbaycanın verdiyi mesaj ondan ibarətdir ki, biz bunu etməyə qadirik. Silahlı qüvvələrin modern silahlarla təhcizatı da ona hesablanıb ki, bu təhlükə Ermənistan tərəfindən qalır".

Hərbi ekspert qeyd edib ki, ermənilərin atdıqları imzalara hörmət edib öhdəliklərini yerinə yetirmədikləri bir tərəfə, hələ Azərbaycana müharibə mesajları ötürürlər.

"Revanşistlər Xocavənddə və Xankəndidə keçirdikləri mitinqlərdə "Biz döyüşməyə hazırıq" mesajlarını verirlər. Ermənilər, həm də sanki "Dəmir Yumruq"dan ötrü darıxmışıq mesajını verirlər. Ona görə də cənab Prezident mesajını verir ki, bunu edirsinizsə-edin, etmirsinizsə hərbə hazır olmalısınız".

E.Şıxəliyev hesab edir ki, birinci mərhələdə Azərbaycanın bir nömrəli məsələsi - "A" variantı bu idi ki, könüllü olaraq dəhlizlər açılır, qeyri-qanuni birləşmələr çıxarılır. Onun fikrincə, Ermənistan bu tələbi yerinə yetirməsə, Azərbaycan bu məsələnin həllini yumşaq güclə, siyasi güclə yox, hərbi güclə yerinə yetirməlidir.

"Yəni vəziyyət bu cür davam edə bilməz. Sərhədlər yoxdursa, lap yaxşı, o zaman Silahlı Qüvvələrimiz gedib harada duracaqsa, bizim sərhələrimiz orada olacaq.

> *Prezidentin verdiyi mesaj bundan ibarətdir ki, bunu ya könüllü edin, ya da bunu sizə məcbur etdirəcəyik*

> *Yüksəkhazırlıqlı xüsusi təyinatlılarımız var və getdikcə sayları da artırılır*

Zəngəzur dəhlizi açılmırsa, Laçın dəhlizini nəzarətə götürməliyik. Əslində, cənab Prezidentin çıxışı Ermənistana son mesaj idi. Ermənistandan cavab istənildi, bu da o deməkdir ki, zamanı uzatmağa bizim vaxtımız yoxdur". Ekspert bildirir ki, modernləşmiş Silahlı Qüvvələrimizin əməliyyat zolaqlarında yerinə yetirə bilməyəcəyi heç bir döyüş tapşırığı yoxdur. Onun sözlərinə görə, bundan sonrasını Ermənistan düşünməli, Azərbaycanın atacağı addımlara hazır olmalıdır.

"Azərbaycanda ordu quruculuğu həmişə ən vacib məsələlərdən biri olub. Cənab Prezident İlham Əliyev bu sahəyə çox böyük diqqət və qayğı göstərib".

■ **Bunu hafta.az-a hərbi ekspert Emin Həsənli ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin son müşavirədə çıxışı zamanı hərbi sahədə aparılan islahatlar və bu istiqamətdə görülən işlərlə bağlı çıxışında qeyd etdiyi məqamlara diqqət çəkərkən bildirib.**

Hərbi ekspert bildirir ki, Azərbaycanın hərbi büdcəsi qısa zamanda Ermənistanın dövlət büdcəsindən dəfələrlə artıq olub. Ölkənin Müdafiə Sənayesi Nazirliyinin yaradıldığını, dünyanın ən qabaqcıl ölkələrinin istehsal etdiyi silahların Azərbaycana gətirildiyini qeyd etməklə yanaşı, E.Həsənli hərbi qanunvericiliyin təkmilləşməsinə diqqət çəkib və zabit-kadr potensialının hazırlanmasına xüsusi önəm verildiyini deyib.

E.Həsənli bildirib ki, bu gün Ordunun saxlanılması, hazırlanması ən yüksək səviyyədədir.

"Ordunun döyüş, psixoloji hazırlığı yüksək səviyyədədir. Bu, özünü Vətən Müharibəsində sübut etdi və Azərbaycan Ordusunun nə qədər qüdrətli olduğunu göstərdi. Ali Baş Komandanın nə qədər müdrik, dahi bir sərkərdə olduğunu dünya gördü. Müharibədən sonra da işğal olunmuş ərazilərdə də birinci iş yenə də hərbi hissələrin tikintisi olub. Müasir hərbi hissələr yaradılıb. Hərbçilər üçün yaxşı şərait yaradılıb, əmək haqqları bir neçə dəfə artırılıb. Eyni zamanda komonda hərbi birləşmələri yaradılıb. Yüksəkhazırlıqlı xüsusi təyinatlılarımız var və getdikcə də sayları artırılır. Qarşıya məqsəd qoyulur ki, ordumuz dünyanın ən güclü ordularından biri olmalıdır. Bu belədir, döyüş hazırlığını daha da artırmalıyıq. Qardaş Türkiyə ordusu ilə bərabər təlimlər keçirilir. Bu təlimlər dağda, meşədə terrorçi dəstələrin zərərsizləşdirilməsi, qanunsuz silahlı birləşmələrə qarşı birgə mübarizənin həyata keçirilməsi üçün çox önəmlidir". Hərbi ekspert qeyd edir ki, Türkiyə, Azərbaycan və Pakistanın birgə təlimləri region və dünyada sülhün təmin olunması üçün çox önəmlidir. Onun sözlərinə görə, Azərbaycan ordusu Türkiyə hərbi modelinə keçir.

"Azərbaycan Müdafiə Nazirliyinin Universiteti yaradılıb. Bütün hərbi təhsil müəssisələri orada birləşdirilib. Amma biz ümidliyik ki, ordumuz daha da güclənəcək, bu, dövlət başçısının iradəsidir. Hər il hərbi büdcə artırılır. Parlamentdə büdcəyə baxılanda ən çox müdafiə və təhlükəsizlik sahəsinə dəstək olur ki, bu da hər bir kəsin ürəyincədir. Görülən işin nəticəsidir ki, Azərbaycan 44 günlük müharibədə minimum itkilərlə çox böyük uğurlar əldə edib. Biz ordumuzla fəxr edirik. Ordumuz bizim qürur mənbəyimizdir. Ordumuzun güclənməsi üçün hər kəs əlindən gələni etməldiir. Ordumuzun güclü olması dövlətimizin ən əsas şərtlərindən biridir".

✍ *Tahirə*

# Rus sülhməramlıları və qanunsuz erməni silahlı dəstələrinə son xəbərdarlıq

**Prezident İlham Əliyevin 6 ayın iqtisadi-sosial yekunları ilə bağlı son müşavirədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, sülh sazişi və sərhədlərin müəyyənləşdirilməsi, qanunsuz erməni silahlı birləşmələrinin tərksilah edilməməsi, Ermənistanın hələ də Yuxarı Qarabağda hərbi birləşmələrinin olması, eləcə də, Yuxarı Qarabağ ərazisində Rusiya sülhməramlılarının fəaliyyəti ilə bağlı səsləndirdiyi fikirlər proseslərin sonrakı inkişafı ilə bağlı rəsmi Bakının daha kəskin reaksiya göstərə biləcəyinə dair xəbərdarlıq kimi qiymətləndirilir.**

> *Rus hərbçilərinin qeyri-obyektiv və qeyri-səmimi olmasının nəticəsidir ki, bu gün hələ də Qarabağ ərazisində erməni terrorçu ünsürləri var*



> *Laçın yolunda Azərbaycan sərhəd nəzarəti mütləq və mütləq bərpa olunmalıdır*

■ **Politoloq Samir Hümbətov hafta.-az-a bildirib ki, Prezident "Ermənistan 10 noyabr 2020-ci ildə imzalanmış Bəyannamədə təsbit edilən məsələlərin icrasından boyun qaçırır. 10 noyabr Bəyannaməsi faktiki olaraq Ermənistanın kapitulyasiya aktıdır və müharibədə məğlub edilmiş tərəf kimi Ermənistan öz üzərinə öhdəliklər götürüb" bəyanatı ilə bu prosesdə vasitəçi olan tərəflərə də ciddi mesajlarını verib.**

Onun sözlərinə görə, 2020-ci ilin 10 noyabr tarixindən bəri tərəflər arasında imzalanmış müqavilənin şərtləri Azərbaycan tərəfindən tamamilə yerinə yetirilib. Amma nə Ermənistan, nə də vasitəçi qismində Rusiya qoyulan şərtləri və tələbləri yerinə yetirməyib. "Rusiya hərbçiləri sülhməramlı qismində Qarabağda olduğu 1 il 8 ay ərzində erməni terrorçu dəstələrinin Qarabağda qalan ünsürlərini həmin ərazilərdən tərksilah edib çıxartmayıblar. Bu da əlbəttə ki, regionda daimi gərginliyin davam etməsi deməkdir. Zaman-zaman həm sosial mediadan, həm də kütləvi informasiya vasitələrindən əldə etdiyimiz məlumatlara görə rus həbçləri mütəmadi şəkildə qoyulan nizamnamənin tələblərini pozub və bəzi xoşagəlməz hallar yaşanıb. Bunun nəticəsində də Prezident İlham Əliyev bir neçə dəfə sülhməramlılarla bağlı ümumi şəkildə narazılığını bildirib. Sonuncu müşavirədə artıq vəziyyətin nədən ibarət olduğunu və sülhməramlıların fəaliyyətində qeyri-obyektiv davranışın olduğunu açıq şəkildə bildirib".

S.Hümbətov Prezidentin müşavirədə etdiyi çıxışa istinad edərək bildirib ki, bütün deyilən fikirləri nəzərə aldıqda görünən odur ki, sülhməramlı qismində Qarabağda fəaliyyət göstərən rus hərbçilərinin fəaliyyəti ümumilikdə Azərbaycanın mövqelərinə və mənafelərinə uyğun deyil. "Bu onu göstərir ki, yaxın zamanlarda sülhməramlıların fəaliyyətini davam etdirməsi sual altına düşə bilər. Əlbəttə ki, 10 noyabr 2020 -ci ildə imzalanmış üçtərəfli bəyannamənin şərtlərindən biri də odur ki, sülhməramlılar ərazidə 5 il müddətində müvəqqəti qala bilər.

O müqavilənin digər şərti də ondan ibarət idi ki, müqavidənin şərtləri tam şəkildə həyata keçirilsin. Görünən odur ki, onlar bunu istəmirlər. Bu isə o deməkdur ki, müqavilə pozulub". Politoloq hesab edir ki, Azərbaycan istənilən vaxt rus hərbçilərinin Qarabağ ərazisindən çıxarılması məsələsini gündəmə gətirə bilər.

"Düşünürəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev son müşavirədə etdiyi çıxışı zamanı rus hərbçiləri ilə bağlı verdiyi açıqlamada əsas məsələ olaraq buna toxundu. Bu o deməkdir ki, yaxın dövlərdə bu istiqamətdə ciddi tədbirlər görülməyə başlanacaq. Rus hərbçilərinin qeyri-obyektiv və qeyri-səmimi olmasının nəticəsidir ki, bu gün hələ də Qarabağ ərazisində erməni terrorçu ünsürləri var və Azərbaycan yaxın zamanlarda antiterror əməliyyatlarına başlaya bilər, bu gözləniləndir. Həm də paralel olaraq rus hərbçilərinin ərazidən çıxarılması prosesi də gedə bilər. Prezidentin fikirlərində də məhz bu detallar qeyd olunub. Ölkə başçısı üstüörtülü şəkildə sülhməramlıların gələcək fəaliyyətinin də sual altında olduğunu bildirmək istədi".

"Əslinə qalsa, Ermənistan bir müddət əvvəldən Qarabağa hərbçi göndərməmək haqda qərar vermişdi. Lakin sonradan məlum oldu ki, Qarabağdakı ermənilərin sayı kəskin şəkildə azaldığından postlarda dayanmağa canlı qüvvə çatışmır. Buna görə də rəsmi İrəvan bunu bəhanə edərək yenidən Azərbaycanın bu torpaqlarına hərbçilər yollamağa başlayıb. Amma mən istisna etmirəm ki, bu dəfə də Ermənistan yenə də hansısa yollarla, yəni könüllü, muzdlu, müqavilələi və s. adlarla Qarabağa hərbçi göndərəcək".

■ **Bu fikirləri Hafta.az-a açıqlamasında sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın sentyabr ayından Qarabağda Ermənistandan çağırışçıların olmayacağını, lakin orada məskunlaşmış ermənilər arasındakı çağırışçıların qondarma "müdafiə ordusu"nda xidmətə çağırılmasının davam edəcəyi haqdakı son bəyanatına münasibət bildirərkən söyləyib.**

"Lakin Ermənistanın bu qərarı məsələnin həlli deyil. Hesab edirəm, Laçın yolunda Azərbaycan sərhəd nəzarəti mütləq və mütləq bərpa olunmalıdır. Yalnız bundan sonra biz Ermənistanın Qarabağa əsgər göndərib-göndərmədiyini müəyyən edə bilərik. Yəni biz məsələnin yalnız bəyanatlarla həllini gözləsək, bu, bizi qane etməyəcək", - açıqlamasının davamında bunları söyləyən şərhçi Rusiyanın torpaqlarımızdakı "sülhməramlı" sayılan hərbi kontingentinin oradakı qanunsuz silahlı birləşmələrin tərksilahı prosesini davam etdirməyə borclu olduğunu da diqqətə çatdırıb.

"İkincisi, bəli, Ermənistandan torpaqlarımıza hərbçi göndərilməməsi bir tərəfdən müsbət addımdır. Digər tərəfdən, yaxşı, Ermənistan hərbçiləri çıxır və olmayacaq, bunu anladıq bəs orada A.Qriqoryanın xatırlatdığı qondarma separatçı-terrorçu rejimin qeyri-qanuni fəaliyyət göstərən və yerli ermənilərdən ibarət guya ki, təhlükəsizlik məsələləri ilə məşğul olan müxtəlif silahlı qurumlar necə olacaq? Onların da mövcudluğu Azərbaycan Konstitusiyasına ziddir, qəbuledilməzdir və məntiqə uyğun deyil, çünki orada Rusiya sülhməramlılarının fəaliyyəti əslində ermənilərin təhlükəsizliyini təmin etməkdir. Yəni bu baxımdan 10 noyabr bəyanatına uyğun olaraq sülhməramlılar tərəfindən tərksilah prosesi davam etdirilməlidir. Çünki həmin ərazilərin Azərbaycan dövlətinə inteqrasiya prosesi gərək ilk növbədə təhlükəsizlik tezisinə aid olsun. Və Qarabağdakı ermənilərin təhlükəsizliyini təmin etmək adıyla yaradılmış qüvvələr Azərbaycanın nəzarəti altında formalaşmış hansısa qurumlarla əvəz olunmalıdır", - deyə sabiq baş diplomat vurulayıb.

✍ *Sultan Laçın*

# Peşəkar medianın fəaliyyətinin stimullaşdırılması əsas məqsədlərimizdəndir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən ilin yanvarın 12-də imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə ölkə mediasının inkişafında yeni bir mərhələnin əsası qoyuldu. Artıq "Media haqqında" Qanunun qüvvəyə minməsi, jurnalistlərə sosial ipotekadan yararlanmaq imkanın verilməsi, qəzet kağızının ƏDV-dən azad olunması media islahatlarının ölkəmizin informasiya mühitinə gətirdiyi yeni yanaşmanın ilkin təzahürləridir. Milli Mətbuat Günü ərəfəsində Azərbaycanda media islahatlarının gedişi və qarşıda duran vəzifələr barədə AZƏRTAC-ın suallarını Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov cavablandırır.***

## Müsahib



**Əhməd İsmayılov,**
Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru

***- Əhməd müəllim, müasir çağırışlar kontekstində Azərbaycan mediasının inkişaf perspektivlərini necə qiymətləndirirsiniz və bu istiqamətdə Agentliyin fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?***

- Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız qalibiyyət medianın da inkişafına təkan vermiş, yeni mərhələnin başlanmasını şərtləndirmişdir. Vətən müharibəsindən az sonra dövlətimizin başçısının "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı özündə köklü dəyişiklikləri əks etdirməklə qarşımıza yeni və daha məsuliyyətli vəzifələr qoymuşdur. Fərmandan irəli gələrək tətbiq olunacaq yeniliklər Azərbaycan mediasının şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasına şərait yaradacaq, modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi kimi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinin, innovativ yanaşmaların tətbiqinə təkan verir. Media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsinin təşkili, həmçinin dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi MEDİA Agentliyinin əsas prioritetlərindəndir.

Bir daha vurğulamaq istərdik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbəyə imza atması bütün sahələrdə olduğu kimi, medianın da fəaliyyətində ruh yüksəkliyi yaratmışdır. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidentinin ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılması istiqamətində yorulmaz fəaliyyətindən ruhlanan jurnalistlərimiz də öz peşə borclarını ləyaqətlə yerinə yetirdilər. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın informasiya savaşında rolu və çağırışlarına, Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlara səfərləri zamanı çəkdiyi video və fotolarla erməni vəhşiliyini həm də öz sosial media hesablarında paylaşmasına və bu istiqamətdəki çoxsaylı fəaliyyətinə media orqanları xüsusi diqqət ayırmış, obyektivlik, yüksək peşəkarlıq və prinsipiallıq nümayiş etdirərək ölkə reallıqlarını bütün dünyaya çatdırmışlar.

Cənab Prezident tərəfindən cari ilin fevralında imzalanmış və Azərbaycanda media islahatlarının "yol xəritəsi" kimi dəyərləndirilən "Media haqqında" Qanunun məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə jurnalistika peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaradılmasıdır. Müasir tələblərə cavab verməklə yanaşı ölkənin plüralist informasiya mühitinin gücləndirilməsinə şərait yaradan "Media haqqında" Qanun bir tərəfdən bu günə qədər tənzimlənmiş münasibətləri tənzimləyir, digər tərəfdən isə artıq tənzimlənən münasibətlərin yeni nizamasalma mexanizmlərini müəyyənləşdirir.

Cari ilin fevralın 8-də dövlət başçımızın "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə" Fərmanına əsasən Media Reyestrinə daxil edilmiş və jurnalistika sahəsində müəyyən qədər staja malik olan jurnalistlərə, habelə gənc ailənin üzvü olan jurnalistlərə mənzil almaları üçün dövlət dəstəkli güzəştli ipoteka kreditindən yararlanmaq hüququ verilmişdir. Müvafiq Fərman cəmiyyəti obyektiv və qərəzsiz informasiya ilə təmin etmək kimi şərəfli bir peşəni icra edən jurnalistləri digər dəyərli peşə sahibləri ilə eyni sıraya daxil etmiş, dolayı yolla jurnalistin dövlətin gözündəki həqiqi statusunu və kimliyini müəyyənləşdirmişdir.

Dövlətin medianın inkişafı stimullaşdıran addımlardan biri də qəzet kağızının ƏDV-dən azad olunmasıdır ki, media ekspertləri əminliklə bunun çap mediasının inkişafına təkan verəcəyini bildirmişlər. Xatırladaq ki, cənab Prezidentin Fərmanı ilə ötən ilin dekabrında Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişikliyə dair siyahının təsdiqi Nazirlər Kabinetinə həvalə olunmuşdur. Bu il mayın 13-də Azərbaycan Respublikasının Baş nazirinin müvafiq Qərarı ilə ƏDV-dən azad edilən Azərbaycanda kütləvi informasiya məhsullarının siyahısı təsdiqləndi. Bu Qərar çap mediası məhsullarının maya dəyərini və onların istehsal xərclərini əsaslı azaltmaqla inkişafına təkan verəcəkdir. Məsələ ilə bağlı ölkənin çap mediası subyektlərinin rəhbərləri ilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində aparılan müzakirələr və yayım şirkətləri ilə görüşlərdə səsləndirilən fikirlər bu yanaşmanı dəstəkləyir. Onu da vurğulayaq ki, kitab və kağız məhsullarının idxalı və satışının ƏDV-dən azad edilməsi bu sahədə də canlanma yaratmaqla yanaşı, nəşriyyatların işinə müsbət təsir göstərəcəkdir.

Ümumiyyətlə, medianın cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması, demokratik dəyərlərə hörmətin bir hissəsi kimi fundamental hüquq olan düzgün informasiya almaq hüququnun realizəsi, bu yolla ictimaiyyət və media arasında qarşılıqlı etimadın artırılması əsas məqsədlərimizdəndir. MEDİA Agentliyi, ilk növbədə, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasını hədəfləyir və bu istiqamətdə atılacaq addımlara dəstək göstərir.

***- Əhməd müəllim, "Media haqqında Qanun"dan irəli gələrək Media Reyestrinin yaradılması ilə bağlı məsələ nə yerdədir?***

- Həmişə qeyd etdiyimiz kimi, Media Reyestri Azərbaycanda media mühitinin sağlamlaşdırılmasına, onun rəqabət qabiliyyətinin artırılmasına şərait yaradan vasitələrdən biridir. Reyestrin məqsədi media subyektlərinin sayının müəyyənləşdirilməsi, bununla da media subyektlərinə və onların işçilərinə tanınan hüquqların müdafiəsi mexanizminin formalaşdırılması, bu sahədə fəaliyyətin stimullaşdırılmasıdır. Reyestrə daxil edilmək üçün tələb olunan məlumatlar mahiyyət etibarilə mətbu nəşrlərin uçotu zamanı tələb olunan məlumatlardır, sadəcə, müasir dövrün çağırışlarına uyğunlaşdırılmışdır. Onsuz da bu məlumatlar və sənədlər media subyektlərində mövcuddur, reyestr, sadəcə, onları vahid bazada toplayacaq və pərakəndəliyin qarşısını alacaqdır. Tələb olunan rəsmi məlumatın məqsədi həm media subyektlərinin, həm də jurnalistlərin fəaliyyətinin daha səmərəli təşkilini və onların hüquqlarının ən yüksək səviyyədə müdafiəsini təmin etmək, heç bir qanuni əsası olmadan özünü media subyekti və ya jurnalist kimi təqdim edən və qeyd olunan statusdan sui-istifadə edən şəxslərin fəaliyyətinin qarşısını almaqdır. Reyestrin aparılması nəticəsində keyfiyyətli xəbər istehsalını dəstəkləmək, bu sahədə stimullaşdırıcı tədbirləri həyata keçirmək mümkün olacaq. Beləliklə, yaranacaq mühit rəqabət şəraitində peşəkar medianın önə çıxmasını və inkişafını təmin edəcəkdir. Media Reyestrinə hazırlığın ilkin mərhələsi artıq başa çatıb və işçi qaydada müvafiq orqanlarla müzakirə olunur. Düşünür ki, müəyyən olunmuş müddətdə onun həyata keçirilməsinə nail olacağıq.

***- İctimai əhəmiyyətli məzmun yaratmaq jurnalistikanın başlıca funksiyası hesab olunur, bəs Azərbaycanın mediası bu funksiyanın öhdəsindən necə gələ bilir?***

- MEDİA Agentliyi media subyektlərinin işinin keyfiyyət baxımdan yaxşılaşdırılması, jurnalistika prinsipləri və peşə etikası çərçivəsində səmərəli fəaliyyət göstərməsi üçün sistemli xarakter daşıyan strategiya həyata keçirir. Nümunə üçün deyək ki, Agentlikdən maliyyə yardımı alan qəzetlərin və saytların yalnız bu ilin altı ayı ərzində aparılmış monitorinqinin və ardıcıl həyata keçirdiyimiz tədbirlərin nəticəsi müsbət dinamikanı görməyə imkan verir. Bir çox saytların texniki problemləri aradan qaldırılmış, bəziləri tamam yeni tərtibata keçmiş, bir çox saytlar yeni rubrikalar yaratmış və ən əsası, gündəlik 20 özəl material tələbini yerinə yetirmək artıq gündəlik iş normasına çevrilməkdədir. Bütün media subyektlərinin daim şikayət etdikləri "copy-paste" hallarının əsaslı şəkildə azaldığını müşahidə edirik, Azərbaycan dilinin ədəbi üslubunun tələblərinə ciddi əməl edilməsi diqqət mərkəzimizdədir. Bəzi saytlarda özünü göstərən xəbər lentinin quql platformasının mexaniki tərcümə proqramından istifadə etməklə doldurulması prosesinin qarşısının alınması yönündə atdığımız addımlar qısa vaxtda öz səmərəsini verir. Bütün bunlarla yanaşı, məzmun rəngarəngliyinə nail olmaq əsas hədəfimizdir. Görüşlərimizdə də bildirdiyimiz kimi hər bir media subyektinin öz siması, özünəməxsus xüsusiyyətləri olmalıdır. Tərcümə materiallarından asılılığı janr müxtəlifliyi ilə əvəzləmək media subyektinin özünüinkişaf konsepsiyasının əsasını təşkil etməlidir. Təqdir olunan haldır ki, Agentlikdən dəstək alan media subyektlərində media etikasının pozulması halları yox dərəcəsindədir.

***- Azərbaycanın çap mediasının işində hansı dəyişikliklər müşahidə olunur?***

- İKT-nin sürətli inkişafı ilə müşayiət olunan dəyişikliklər qəzetlərə münasibətdə xüsusi və həssas yanaşma tələb edir ki, MEDİA Agentliyi də bu çağırışlardan çıxış edərək yeni trendlərə uyğunlaşma prosesində çap mediasına dəstəyini davam etdirir. Bu istiqamətdə dövlət dəstəyinin məqsədi çap mediası subyektlərinin yalnız biznes strukturu kimi formalaşmasına yardım etmək deyil, texniki imkanlar baxımından onlayn media ilə bərabər olmayan rəqabət şəraitində ciddi fikir tribunası kimi qəzetlərin ayaqda qalmasına kömək göstərməkdir. Başqa sözlə desək, dövlət yazılı medianın timsalında Azərbaycan dilinin inkişafına, ənənəvi publisistik düşüncənin yaşamasına və eyni zamanda cəmiyyətdə plüralizmin möhkəmlənərək sərhədlərinin genişlənməsinə dəstək göstərir. MEDİA Agentliyi keçən ilin ikinci yarısında qəzetlərə dəstəyin yeni mexanizmini tətbiq etdi ki, bunun da keyfiyyət dəyişikliyinə gətirib çıxaracağını, ənənəvi mediadan yeni media müstəvisinə konvergensiya prosesini sürətləndirəcəyini hesablamışdıq. MEDİA Agentliyinin dəstək verdiyi 6 gündəlik, 10 həftəlik olmaqla, bütün qəzetlərdə, habelə onların eyniadlı veb-saytlarında əsaslı dəyişiklik, müasirləşmə özünü göstərir. Bir sıra qəzetlərimiz ənənəvi A3 formatı dəyişərək yeni tərtibatda B2 formata keçmişlər, qəzetlərin əksəriyyəti artıq tam rəngli nəşr olunmaqdadır. Elə çap mediası subyektlərimiz var ki, tərtibatı əsaslı formada dəyişib, köhnə forma və qəliblərdən imtina olunub. Məsuliyyətlə deyə bilərik ki, çoxşaxəli konvergensiya prosesinin ayrılmaz elementi olan qəzet saytlarının yenidən qurulması prosesi artıq başa çatmışdır. MEDİA Agentliyi ümumi dəstək zərfində qəzet saytlarının inkişaf etdirilməsini öhdəlik kimi irəli sürmüş və bunun üçün birdəfəlik vəsait ayırmış, eyni zamanda, aylıq dəstək göstərməkdə də davam edir. Əksər qəzetlərimizin saytları ya yenidən qurulmuş, ya da əsaslı şəkildə dəyişmişdir. Bunun nəticəsi olaraq deyə bilərik ki, qəzet saytları onlayn media subyektlərindən geri qalmır, əksinə, məzmun yaratmaq, əhəmiyyətli kontent vermək baxımından fərqlənə bilirlər.

Yazılı medianın müasir simasının formalaşması yönündə konseptual yanaşmamız gələcəyə hesablanıb, ona görə bu proses davamlı xarakter daşıyır. Hazır qəzet mətnlərinin saytlara yüklənməsi hələ yeni media demək deyil. İrəlidə müasir qəzetçiliyin yazı üslubu, ənənəvi mətnlərdən "hipermətn"lərə keçid, mövzu təqdimatı, qəzet məhsulunun tək yazılı deyil, müxtəlif versiyalarda hazırlanıb populyarlaşdırılması və s. kimi sırf jurnalist yaradıcılığı ilə bağlı məsələlərin həllinə nail olmalıyıq. Bu gün Azərbaycanın media subyektləri arasında hansı formatda çıxmasından asılı olmayaraq, qəzetlərin intellektual potensialı yüksəkdir.

> *Prezidentin ictimai nəzarətin təmin edilməsi baxımından media nümayəndələrinin rolunu xüsusi vurğulaması jurnalistlərin peşəkar fəaliyyətlərini yerinə yetirərkən məsuliyyətli olmasını şərtləndirir*

***- Əhməd müəllim, Agentliyin "E-köşk" layihəsi və "Metrix.az" - media təhlili platforması böyük marağa səbəb oldu. Bu layihələrin yaranma zərurəti haqqında fikirləriniz maraqlı olardı.***

- "E-köşk" platforması qəzet redaksiyalarına texniki yönümlü xərclərini azaltmağa və nəşrlərini oxuculara daha əlverişli şəkildə çatdırmağa şərait yaradacaq. Agentlik olaraq konseptual yanaşmamız ondan ibarətdir ki, müasir Azərbaycan oxucusunun keyfiyyətli kontentlə təmin olunması məqsədilə bütün digər media subyektləri kimi qəzetlər də inkişaf etməlidir. Bir sözlə, "E-köşk" rəqəmsal çap mediası məhsullarının abunə və satışının təşkil edildiyi platformadır. Portal qlobal informasiya mühitinin modernləşməsi, qabaqcıl texnologiyaların media sahəsində geniş tətbiqi və digər innovativ yeniliklərin sahədə yaratdığı ehtiyaclar və müşahidə edilən müasir tendensiyalar nəzərə alınaraq hazırlanıb. Platformanın ənənəvi çap mediasını hər kəs üçün daha əlçatan etməsi, oxuculara mütəmadi olaraq yenilənən məlumat bazasından qəzet və jurnalları zaman və məkandan asılı olmayaraq, asanlıqla əldə edə bilmək imkanı yaratması nəzərdə tutulur. "E-köşk" portalı vasitəsilə oxucular ölkədə baş verən yeniliklərdən daim xəbərdar olmaqla yanaşı, rəqəmsallaşdırılmış arxivdən sərbəst şəkildə faydalana biləcəklər. Sualınızın Azərbaycanın milli rəqəmsal media təhlili platforması olan "Metrix.az"la bağlı hissəsinə gəldikdə isə qeyd etmək istərdim ki, platforma 50-dən çox yerli informasiya veb-saytı və keçirilən sorğular vasitəsilə ölkədə ən çox oxunan xəbərləri, günün trendlərini və müxtəlif digər statistik məlumatları özündə ehtiva edir. Milli sayğac vasitəsilə veb-saytların reytinqinin müəyyənləşdirilməsi biznes strukturları üçün etibarlı data baza formalaşdıracaqdır.

Yeri gəlmişkən, vurğulamaq istərdik ki, vaxt keçdikcə "Media haqqında" Qanunda əksini tapmış müəllif hüquqları, habelə onlayn media standartları ilə bağlı tələblərin praktikada özünü doğrultduğunu və Azərbaycanın informasiya mühitini sağlamlaşdırmaq istiqamətində ciddi hüquqi baza rolu oynadığının şahidi oluruq.

***- MEDİA Agentliyi tərəfindən ötən il jurnalist peşəkarlığının artırılması məqsədilə silsilə təlimlər həyata keçirildi. Hazırda bu istiqamətdə işlər necə davam etdirilir?***

- Ötən il ADA Universiteti ilə MEDİA Agentliyinin birgə əməkdaşlığının təməli qoyulmuş və jurnalistikanın müxtəlif seqmentlərinin inkişafına yönəlmiş təlimlər keçirilmişdir. "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusunda baş tutan seminarlarda dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətlərinin rəhbərləri, ictimaiyyətlə əlaqələr və mətbuatla iş üzrə məsul əməkdaşları iştirak etmişlər. Yetmişdən çox baş redaktorun iştirakı ilə "Aljazeera" və "Haber Global"ın mütəxəssislərinin də qatıldığı "Mediada islahatlara doğru" mövzusunda silsilə seminarlar keçirilmişdir.

Artıq ADA Universiteti ilə media sahəsində mütəxəssislərin əlavə təhsilinin təşkil edilməsi üzrə səmərəli əməkdaşlığın genişləndirilməsi və media sahəsində özünü göstərən ehtiyacları hədəflənən layihələrin reallaşdırılması məqsədilə əməkdaşlıq memorandumu imzalanmışdır. Bu il ərzində Agentlik tərəfindən media nümayəndələrinin peşəkarlığının yüksəldilməsi üzrə peşəkar və sahəvi jurnalistika təlimləri, media subyektlərinin texniki heyəti üçün ixtisaslaşma proqramları, eyni zamanda, gənc kadrların inkişafı üçün yerli və xarici mütəxəssislərin iştirakı ilə müxtəlif layihələrin təşkil edilməsi nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, ilin sonuna qədər keçirilməsi planlaşdırılan inkişaf proqramlarında 600-dən çox media nümayəndəsi əhatə olunacaqdır. Digər dövlət orqanları ilə də birgə təşkil etdiyimiz təlimlərə maraq böyükdür və bu işlər öz növbəsində sahəvi jurnalistikanın inkişafı üzrə layihələrimizin tərkib hissəsidir. Hazırda Agentlik tərəfindən digər dövlət qurumları ilə müxtəlif layihələr həyata keçirilməkdədir. Fərqli kateqoriyalara istiqamətlənmiş bütün bu tədbirlərin əsas məqsədlərindən biri informasiya və xəbər mühitini sağlamlaşdırmaq, bu sahədə peşəkarlıq səviyyəsini yüksəltmək, jurnalistika peşəsinin cəmiyyətdə nüfuzunu qaldırmaq, onu yüksək keyfiyyət standartlarına uyğunlaşdırmaqla məsuliyyətsiz və qeyri-peşəkar təzahürlərdən azad etməkdən ibarətdir.

Xüsusi olaraq vurğulamaq istərdim ki, hər bir sahədə olduğu kimi, media sahəsində də peşəkarlığın əsas göstəricilərindən biri peşə etikası amilidir. Mediada peşə etikasına riayət edilməsi, müəllif hüquqları, məlumatların dəqiqliyi və qərəzsiz obyektiv yanaşmanın təmin edilməsi, əxlaq normalarının gözlənməsi və s. məsələlər peşəkar medianın inkişaf etdirilməsi kontekstində daim diqqətimizdə saxlanılır və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir. Medianın İnkişafı Agentliyi mütəxəssislərin prosesə cəlb edilməsi ilə media subyektləri üçün "Redaksiya siyasəti və peşə etikası qaydaları" adlı tövsiyələr hazırlamışdır. Düşünürük ki, dünyadakı müsbət təcrübələri və yerli xüsusiyyətləri nəzərə alaraq, Azərbaycanda fəaliyyət göstərən media subyektlərinin öz redaksiya siyasətini müəyyənləşdirməsi, oxşar kontekstlərə malik olması medianın inkişafı, peşəkarlığının artırılması baxımından faydalıdır. Media subyektlərində təqdim etdiyimiz tövsiyələr əsasında, müzakirələr aparılıb və hər bir media subyektinin özünə uyğun redaksiya siyasəti çərçivəsində həmin peşə etikası qaydalarının təsdiq olunması prosesinə başlanıb. Bu qaydaların tətbiq olunması, hər bir media subyektində müəlliflik hüquqlarının qorunmasına və ümumilikdə media sahəsində peşə etikasına ciddi riayət olunması prosesinə təkan verəcək.

***- Prezident İlham Əliyev bu ilin yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində medianın ictimai nəzarət rolunu xüsusi vurğulamışdır. Sizin fikrinizcə, Azərbaycan mediası öz üzərinə düşən bu vacib missiyanı hansı səviyyədə yerinə yetirir?***

- Cənab Prezidentin daim jurnalistlərin əməyinə verdiyi yüksək qiymət böyük etimadın göstəricisi olmaqla yanaşı, media işçilərinin də öz peşəkar missiyalarını həyata keçirməkdə məsuliyyətlərini artırmış olur. Vurğulamaq istərdik ki, Medianın İnkişafı Agentliyi məhz ictimai və dövlət maraqlarını əsas götürərək media subyektləri arasında müsabiqələr keçirir. Bu müsabiqələr çərçivəsində hər il məhz ictimai əhəmiyyət kəsb edən yüzlərlə materiallar hazırlanmaqdadır.

Dövlətimizin başçısı demək olar bütün müşavirələrdə, toplantılarda, ictimaiyyətin nümayəndələri ilə görüşlərində nailiyyətlərlə bərabər, çatışmazlıqlardan da bəhs edir, "mütləq çox güclü ictimai nəzarət olmalıdır" deyərək cəmiyyətdən dəstək istəyir. Bu gün sürətlə yeniləşən, keyfiyyətcə yeni mərhələyə qədəm qoyan ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində atılan addımlar, ifadə azadlığının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının kifayət qədər formalaşması ictimai nəzarətin və ictimai rəyin rolunu daha da artırır. Bu baxımdan Prezident İlham Əliyevin yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində dövlət nəzarəti ilə yanaşı, ictimai nəzarətin rolunu bir daha vurğulaması çox mühüm əhəmiyyət kəsb edir. Prezidentin ictimai nəzarətin təmin edilməsi baxımından media nümayəndələrinin rolunu xüsusi vurğulaması jurnalistlərin peşəkar fəaliyyətlərini yerinə yetirərkən məsuliyyətli olmasını şərtləndirir. Üzərinə düşən məsuliyyəti anlayan və gündəlik işini peşə davranış qaydalarından irəli gələn prinsiplər əsasında quran media ictimai nəzarətçi missiyasını uğurla həyata keçirə bilər. Medianın ictimai maraqlardan irəli gələn obyektiv və qərəzsiz məlumat hazırlamaq funksiyasını layiqincə yerinə yetirməsi üçün ölkəmizdə həm ictimai-siyasi, həm də hüquqi zəmində hər cür şərait yaradılmışdır.

# Qlobal iqtisadi böhran astanasında



◂ əvvəli 1-ci səhifədə

Eyni zamanda, minimum istehlak səbətinə daxil olan məhsulların istehsalını həyata keçirən sahibkarlar üçün də güzəşt mexanizmi genişləndirilir. Onlara güzəştli kreditlər, həm də bütövlükdə kommersiya qurumlarından olan kreditlərin faizlərinin bir qisminin subsidiyalaşdırılması formasında həyata keçirilib. Bu da nəticə etibarilə yerli istehsalın dəstəklənməsi və genişləndirilməsinə xidmət edir. O baxımdan artıq Azərbaycan preventiv olaraq qlobal ressesiyanın, eləcə də qlobal ərzaq böhranının təsirlərini minimumlaşdırmaqla bağlı fəaliyyətləri genişləndirir. Bu da ondan xəbər verir ki, ressesiya fonunda Azərbaycan mövcud siyasətlə gözlənilən qlobal böhranın ölkə iqtisadiyyatına təsirlərini minimumlaşdırmağa çalışacaq".

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Eldəniz Əmirov deyib ki, dünya artıq iqtisadi böhranı yaşamaqdadır: "Bu böhran qarşıdakı müddətdə də davam edəcək. Pandemiya dövrü baş vermiş neqativ hallar nəticə etibarilə böhranın başlanğıcını qoydu. Rusiya və Ukrayna arasındakı müharibə isə bunu daha da alovlandırdı.**

Bildiyiniz kimi, Amerika son 40 ilin ən yuxarı inflyasiya səviyyəsini yaşayır. Eləcə də dünyanın digər ölkələrində sürətli inflyasiya gedir. İnflyasiyanı cilovlamaqdan ötrü uçot dərəcəsinin FED tərəfindən qaldırılması da görünən odur ki, inflyasiyanı cilovlamağa imkan vermir. Qaldırılmış uçot dərəcəsi dolları bahalaşdırır, bu da dünyada digər valyutalara ciddi şəkildə təsirini göstərir. Digər tərəfdən, neftin qiymətinin artması neft idxal edən ölkələrdə istehsalın bahalaşmasına gətirib çıxarır. Bu bizə də təsir edir və idxal etdiyimiz məhsulların qiymətlərinin artmasına səbəb olur. Başqa sözlə, dünya qarışıq bir iqtisadi böhran yaşayır. Perspektivdə də Rusiya-Ukrayna müharibəsinin həll edilməsi baş vermədən neftin qiymətinin aşağı düşəcəyini gözləmək düzgün olmazdı. Amma müharibənin yekunlaşması bir müddət neftin qiymətinin də aşağı enməsinə və stabilləşməsinə gətirib çıxara bilər. O ki qaldı Azərbaycanın iqtisadi tənəzzülə hazır olma yollarına, hesab edirəm ki, artıq 2021-ci ildən başlayaraq bu istiqamətdə müxtəlif səpkili, sistemli işləri müşahidə edirik. Belə ki, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında atılmış bir neçə addım var. Eyni zamanda, məşğulluğun qorunub saxlanılmasında, paralel olaraq iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün müəyyən addımların atılmasında müxtəlif qəbildən tədbirlər müşahidə edirik. Amma təəssüf ki, biz turizmi qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olaraq qeyd etsək də, quru sərhədlərin bağlı saxlanılması bu sektora ciddi təsirlər göstərib. Qeyri-neft sektorunda prioritet olan digər sahələrdən biri kənd təsərrüfatı üzrə də göstəricilərimizdə müəyyən artımlar olsa da, bu o qədər də yuxarı səviyyəli artımlar deyil. Hazırda büdcə daxilolmalarının artmasında da, eyni zamanda qeyri-neft sektorunun inkişafında da yenə neft sektorunun rolu çox böyükdür. Çünki neft sektorundan daxil olmuş vəsaitlər qeyri-neft sektorunda aktivliyi yaradan əsas faktorlardır. Buna görə də maksimum səviyyədə neft gəlirlərindən qeyri-neft sektorunun inkişafına daha çox diqqət və önəm verilməlidir".

Ekspert vurğulayıb ki, bəzi Avropa ölkələri istisna olmaqla, neft gəlirləri olan ölkələrdə qeyri-neft sektorunun inkişafı o qədər də uğurlu olmur: "Çünki gəlirlər bir növ rahatçılıq, arxayınçılıq yaradır. Amma düşünürəm ki, mümkün qədər neft gəlirlərindən asılılığı azaltmaq üçün biz real sektorun inkişafına daha çox önəm verməliyik. Turizmin, aqrar sektorun inkişafına diqqət ayrılmalıdır.

Hesab edirəm ki, ən böyük diqqəti isə aqrar sənaye komplekslərinin yaradılması istiqamətində real addımların atılmasına üstünlük verilməlidir. Aqrar sahədə müəyyən güzəştlər olunsa da, emal sənayesində bu güzəştlərin olmaması nəticə etibarilə kənd təsərrüfatı məhsulunun tarladan satışa qədər olan hissəsində daha böyük həcmdə məhsula daha aşağı dəyər həcmdə realizasiya etməyə imkan verir. Başqa sözlə, məhsulların tarladan emal sahələrinə, fermalardan emal müəssisələrinə ünvanlanması, istiqamətlənməsi kənd təsərrüfatında daha çox dəyər yaratmağa imkan verər. Düşünürəm ki, hazırda fokslanmalı olduğumuz ən vacib məsələ Azərbaycanda emal sənayesinin yaradılmasına və mövcud olanların genişləndirilməsinə böyük ehtiyac vardır. Bunun üçün də əsas güzəşt məsələləridir".

✍ *Sevinc*

# Diaspor təşkilatlarının maliyyə təminatı

## Layihə



***Azərbaycanın tarixi və mədəniyyəti kimi diasporunu da kifayət qədər qədim və zəngin hesab etmək olar. Qeyd edək ki, bu gün dünyada təqribi sayı 60 milyon nəfər olan azərbaycanlıların 10 milyondan çoxu hazırda öz dədə-baba torpaqlarından kənarda yaşayır. Planetin 5 qitəsində məskunlaşan soydaşlarımızın sosial-mədəni və iqtisadi-siyasi fəaliyyətləri yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlif meyarlarla sıx əlaqədardır. Vətəndən kənarda yaşayan soydaşlarımıza diqqətin göstərilməsi isə dövlət üçün hər zaman prioritet məsələlərdən olub. Təbii ki, əsas məqsəd xaricdəki soydaşlarımızın Vətənlə əlaqələrinin daima qırılmaz tellərlə bağlanmasıdır.***

Müstəqillik illərində qəbul edilən və milli dövlətçiliyimiz üçün strateji əhəmiyyət kəsb edən bütün sənədlərdə xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təminatı diqqət mərkəzində saxlanılıb. Azərbaycanın mərhum Prezidenti Heydər Əliyev tərəfindən 2002-ci il iyulun 5-də "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərmanının və 2002-ci il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun imzalaması isə Azərbaycan diasporunun fəaliyyətinin koordinasiya edilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin olunması, onların təşkilatlanması baxımından ciddi rol oynadı.

Bu siyasətin davamı olaraq, Azərbaycan ziyalılarından, tanınmış şəxslərdən, dövlət və hökumət nümayəndələrindən ibarət Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması bu sahəyə xüsusi əhəmiyyət verildiyini bir daha təsdiqlədi. Həmçinin elmi-intellektual potensialın formalaşmasına və inkişafına gətirib çıxardı.

2006, 2011, 2016-cı illərdə Bakı şəhərində Dünya Azərbaycanlılarının İkinci, Üçüncü və Dördüncü qurultaylarının keçirilməsi, müasir dövrün tələbləri nəzərə alınaraq, Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il noyabrın 19-da imzaladığı müvafiq Sərəncamla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılması da məhz zərurətdən irəli gəlir və bu sahənin inkişafına öz töhfəsini verirdi. Bu Dövlət Komitəsinin yaradılmasından sonra soydaşlarımızın və həmvətənlərimizin təşkilatlanması daha geniş vüsət alıb. Hazırda, bu istiqamətdə ümummilli lider Heydər Əliyev dövlət idarəçilik məktəbi mövcudluğu əsasında Azərbaycan diasporu yeni inkişaf mərhələsinə qədəm qoyub.

Bundan başqa, Prezident İlham Əliyevin 2018-ci ilin iyul ayında Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında fərman imzalayıb, publik hüquqi şəxs statuslu Azərbaycan Diasporuna Dəstək Fondunun Nizamnaməsi təsdiq edilib. Fond Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək, milli mənəvi dəyərlərimizi inkişaf etdirmək və dünyada daha geniş tanıtmaq, xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsini gücləndirmək və bu sahəyə dövlət dəstəyinin ünvanlılığını təmin etmək məqsədilə yaradılıb.

> *"Xaricdə bəzi şəxslər yalandan 2-3 nəfər üzvdən ibarət "təşkilat" yaradaraq Azərbaycan dövləti ilə pul davası edirlər*

Maraqlıdır, görəsən, Azərbaycan diasporuna maliyyə dəstəyi hansı formada olmalıdır? Bu məsələdə əsas yük dövlətin, yoxsa böyük biznes fəaliyyəti olan soydaşlarımızın üzərinə düşməlidir?

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən diaspor məsələləri üzrə ekspert Toğrul Allahverdi hesab edir ki, dövlət qəti surətdə diasporu maliyyələşdirməməlidir: "Bunun qəti əleyhinəyəm. Bu maliyyələşmə niyə olmamalıdır.** Məsələn, götürək, erməni və yaxud yəhudi diasporunu. Bəziləri onları Azərbaycan diasporuna örnək göstərməyə çalışırlar. Əslində bu doğru örnək deyil. Düzdür, ola bilər ki, erməni və ya yəhudi diasporunun hansısa güclü layihəsi olub. Amma biz həmin diasporlara baxdıqda nə görürük. Məsələn, erməni diasporu konkret olaraq bu gün Ermənistan dövlətinə təzyiq vasitəsi kimi istifadə olunur.Onlar dövlətin işlərinə qarışırlar, öz maraqlarını dövlətə diktə etdirirlər. Təbii ki, bu da yanlışdır və diaspor hər zaman dövlətə dəstək nümayiş etdirməli, onun yanında olmalıdır. Biz bunun əyani sübutunu Vətən Müharibəsində gördük və şahidi olduq ki, Azərbaycan diasporası həm malı, həm canı ilə dövlətimizin yanında dayandı. Lakin onu da etiraf etməliyik ki, bu gün xaricdə bəzi şəxslər yalandan 2-3 nəfər üzvdən ibarət "təşkilat" yaradaraq Azərbaycan dövləti ilə pul davası edirlər. Bunlar yolverilməzdir. Ona görə də konkret olaraq dövlətin diasporu, xaricdəki Azərbaycan dərnəklərini maliyyələşdirməsi dayandırılmalıdır.



**Toğrul Allahverdi,**
diaspor məsələləri üzrə ekspert

Azərbaycan dövləti bununla bağlı çox gözəl addım atıb və Azərbaycan Diasporuna Dəstək Fondu yaradıb. Bu maraqlı layihədir. Fond Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək, milli mənəvi dəyərlərimizi inkişaf etdirmək və dünyada daha geniş tanıtmaq, xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsini gücləndirmək və bu sahəyə dövlət dəstəyinin ünvanlılığını təmin etmək məqsədilə yaradılıb. Bu gün bildiyim qədər dövlət də ancaq bu Fondla işləyir. Onu da qeyd edim ki, elə ölkələr var ki, onsuz da həmin ölkələrdən kənardan, xaricdən pul almaq mümkün deyil. Əgər Azərbaycandan birbaşa diaspor təşkilatlarına pul gedərsə, o zaman həmin adamlar pul göndərilən ölkənin agenti hesab edilir. Ona görə birbaşa maliyyə yardımı almaq diaspor nümayəndələrimizə də sərf etmir. Bu mənada Azərbaycan Diasporuna Dəstək Fondu vacib bir qurumdur. Hazırda bu qurum öz fəaliyyətini şəffaf şəkildə davam etdirir və Azərbaycanla bağlı layihələri maliyyələşdirir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

### Ekspert rəyi

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən tarix üzrə fəlsəfə doktoru, diaspor məsələləri üzrə ekspert Yəhya Babanlı isə bildirib ki, dövlətin əli mənəvi cəhətdən həmişə milli diasporumuzun üzərində olmalıdır: "Diaspor strateji amil kimi yaşadığımız dövrün vacib elementi hesab olunur.**

Diaspor həm ideoloji gücdür, həm də xaricdə milli mənafe və dəyərlərin təmsilçisidir. Diaspor amili xalqların yaxınlaşması, anlaşması, ölkələrarası münasibətlərin qurulması və dövlətlərarası əməkdaşlığın inkişafında mühüm amildir. Amma maliyyələşmənin birbaşa dövlətin üzərinə qoyulması düzgün yanaşma olmazdı. Əlaxüsus nəzərə alsaq ki, bu təşkilatlar olduqları kənar dövlətlərin qanunvericiliklərinə uyğun fəaliyyət göstərirlər. Ona görə də kənardan birbaşa donor formasında maliyyələşdirmə arzuolunan deyil. Ancaq ki, Azərbaycanın tanıtımı, təbliğatı, o cümlədən adət-ənənələrin qorunması ilə bağlı müəyyən dövlətlərdə xüsusi mədəni tədbirlər həyata keçirilir.Yəni, Azərbaycan diaspor təşkilatlarının bu və ya digər formada maliyyələşdirilməsi qaçılmazdır, mümkündür. Bunu normal hesab etmək olar. Lakin ən yaxşı o olardı ki, bu gün Azərbaycan diasporunun, Azərbaycan diaspor təşkilatlarının Ana Vətəndən maddi cəhətdən umduqları olmasın. Və bu əksinə olsun. Belə deyək ki, onlar Vətən üçün nə etməli olduqlarını düşünsünlər. Əslində biz ümumi götürsək, Vətən Müharibəsi dövründə Azərbaycan diasporunun ordumuza, o cümlədən aidiyyəti üzrə müəyyən yardımlarını, dəstəklərini nəzərə alsaq görəcəyik ki, heç də Azərbaycan dövləti diasporu maliyyələşdirmir. Yəni, əksinə olaraq bizim çox böyük dəstək aldığımız məqamlar olub.

Xatırlayırsınızsa, Diaspora Komitəsi Yaşat Fondu ilə birlikdə Xeyriyyə Marafonu təşkil etmişdi. O aksiyada 1 milyon manatdan çox vəsait toplanmışdı. Bunun özü bir göstəricidir ki, Azərbaycan diasporu öz Vətəni, ölkəsi üçün həm də maddi dəstəyini heç vaxt əsirgəmir. Bir məqamı da qeyd edim ki, bizim bu gün işlədiyimiz diaspor zümrəsinin əksər hissəsi birinci nəsil azərbaycanlılardır. Yəni, onlar bu 30 il ərzində köçüb getmiş şəxslərdir. Ona görə onlar yaşadıqları cəmiyyətdə hələlik birmənalı mövqe tuta bilməyiblər. Ancaq gələcəkdə onların övladları, ikinci, üçüncü nəsil azərbaycanlılar bu çərçivədə iş aparsaq, o zaman şahidi olacağıq ki, diaspor öz Vətəni üçün çox böyük işlər görür və görəcək".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla türkiyəli həmkarı Mövlud Çavuşoğlu arasında telefon danışığı olub. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb. Telefon danışığı zamanı, iki qardaş ölkə arasında əlaqələrin hazırki səviyyəsi və Cənubi Qafqazdaki vəziyyət müzakirə edilib.

---

■ İran Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasını dəstəkləyir. Bu barədə İran Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Nasir Kənani keçirdiyi həftəlik mətbuat konfransında deyib. O, "3+3" əməkdaşlıq formatının əhəmiyyətindən də danışıb və əlavə edib ki, əməkdaşlıq formatının ikinci iclasının Tehranda keçirilməsinə dair siyasi razılıq əldə olunub.

---

■ Astara rayonunda icra nümayəndəsi həbs olunub. Unikal.org xəbər verir ki, hüquq-mühafizə orqanlarının həyata keçirdiyi əməliyyat nəticəsində Astara Rayon İcra Hakimiyyəti başçısının Şiyəkəran kənd ərazi icra nümayəndəsi Tofiq Əliyev saxlanılıb. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə T.Əliyev 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

---

■ "Amazon" korporasiyasına məxsus "Zoox" kompaniyasının istehsal etdiyi pilotsuz taksini ABŞ-ın ictimai yollarda sınaqdan keçirmək niyyətindədir. Kompaniya Kaliforniya yollarında pilotsuz elektrik avtomobilindən istifadə etmək üçün müvafiq orqanlara müraciət ünvanlayıb.

---



■ Birləşmiş Ştatlar administrasiyası Türkiyə rəhbərliyinin taxıl ixracı üçün Qara dənizdəki Ukrayna limanlarının blokadadan çıxarılması üzrə danışıqlarda birbaşa iştirakını dəstəkləyir, lakin Kremlin real motivasiyası ilə bağlı heç bir illüziyaya qapılmır. Bu barədə Ağ evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi Vaşinqtonda keçirilən brifinqdə deyib.

---

■ "Ölkədə epidemioloji vəziyyəti nəzarət altında saxlamaqla meymunçiçəyi virusu ilə mübarizə aparmaq mümkündür". Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib. Nazirlik rəsmisinin sözlərinə görə, xəstəlik hələ geniş yayılmayıb. O qeyd edib ki, bu gün üçün Azərbaycanda bu virus qeydə alınmayıb.

## Təhlil

# Boynubükük Avropa və mövqeyi güclənən Azərbaycan

**Bu günlərdə Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin Azərbaycana səfəri dünya ictimaiyyəti tərəfindən xüsusi maraqla qarşılandı. Niyə? Çünki Rusiyanın Ukrayna torpaqlarına hücumundan sonra Avropada yaranmış neft və təbii qazı özündə cəmləyən enerji böhranını azaltmaq üçün Azərbaycanın verəcəyi qərar çox önəmliydi. Gözlənilən oldu: Azərbaycanla Aİ arasında təbii qazın ixracının artırılmasına dair sənəd imzalandı və yaxın beş il ərzində respublikamızdan "Qoca qitə"yə ixrac edilən qazın həcmi 20 milyard kubmetrə qaldırılacaq.**

Tamam, bütövlükdə Avropa İttifaqı onsuz da Azərbaycanın ən iri ticarət tərəfdaşıdır. Bu sazişin nəticəsinə uyğun olaraq, onsuz da bol olan qaz ehtiyatımızı daha çox hasil və ixrac etməklə qazancımızı artıracağıq. Bu, Azərbaycanın xeyrinədir. Bəs bu müqavilənin Azərbaycan üçün siyasi üstünlükləri də olacaqmı? Axı dövlət başçısı İlham Əliyevin də xanım Ursula ilə keçirdiyi görüşdə dediyi kimi, Avropanın siyasi strukturları hər zaman Azərbaycanın əleyhinə çıxışlar, hətta qərarlarla yadda qalır. Elə son olaraq Avropa Parlamentində Azərbaycanın əleyhinə verilmiş qərarı yada salmaq kifayətdir. Həmin qərarda qeyd edilir ki, guya Azərbaycan tərəfi erməni mədəni-dini abidələrini məhv edib və sair.

■ **Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin baş elmi işçisi, siyasi ekspert Orxan Bağırovun qənaətincə, bu gün Cənubi Qafqazın, xüsusilə də Azərbaycanın Avropa İttifaqı və bütövlükdə Qərb üçün əhəmiyyəti sürətlə artmaqdadır:** "Qlobal geosiyasi vəziyyət hər gün daha da mürəkkəbləşir. Belə təhlükəli şəraitdə Cənubi Qafqazın geosiyasi çəkisi əhəmiyyətli dərəcədə artır. ABŞ və Avropa İttifaqı (Aİ) üçün regionun geoiqtisadi əhəmiyyəti enerji və nəqliyyat kimi iki vacib istiqaməti əhatə edir", - deyən O. Bağırov bildirib ki, 18 iyul tarixində Azərbaycanla Avropa İttifaqı arasında imzalanan "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" tərəflər arasında əməkdaşlığı yeni səviyyəyə qaldırdı. Sazişə əsasən Cənub Qaz Dəhlizi marşrutu ilə Avropaya gələn il 12 milyard, bir neçə il sonra isə 20 milyard kubmetr həcmində qaz nəql ediləcək.

"Regionun logistika imkanları da Qərb tərəfindən yüksək qiymətləndirilir. Asiyanı Avropaya bağlayan əsas quru ticarət və tranzit yolları Rusiya, Azərbaycan və İrandan keçir. Qərbin Moskva ilə ziddiyyətli münasibətləri Rusiyanı şərq-qərb marşrutu üzrə etibarlı tərəfdaş statusundan məhrum edir. İranla münasibətlərini isə hələ ki, proqnozlaşdırmaq çətindir. Belə şəraitdə Şərq - Qərb arasında yeganə marşrut Cənubi Qafqazdan (Azərbaycan+Gürcüstan) keçir. Ölkəmizin coğrafi mövqeyi, Xəzərdə ən iri ticarət donanması, müasir infrastruktur, gəmiqayırma imkanları və (Ermənistan xaric) qonşularla əlaqəli dəmir yolları Qərb üçün Azərbaycanın əhəmiyyətini dəfələrlə artırmış olur. Regionun logistik əhəmiyyətini ABŞ prezidenti C. Bayden Azərbaycan Prezidentinə 1 iyun tarixli məktubunda, xanım Fon der Lyayen isə dünənki çıxışında xüsusi vurğuladı", - cənab Bağırov deyib.



Ekspertin sözlərinə görə, Qərbin geosiyasi gözləntisi isə odur ki, qeyd edilən layihələrin təhlükəsiz şəraitdə həyata keçirilməsini təmin etmək üçün Rusiyanın regiona təsiri hissolunan dərəcədə azalmalıdır. Bunun üçün Azərbaycan - Ermənistan münasibətləri normallaşmalı və nəticəsi olaraq Rusiyanın 2025-ci ildə Qarabağda hərbi mövcudluğuna son qoyulmalıdır. Regionda Rusiyadan ən çox asılı vəziyyətdə olan Ermənistan isə Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması nəticəsində Rusiyadan iqtisadi və təhlükəsizlik asılılığını azalda bilər. "Ona görə də Ermənistanla Azərbaycan arasında ikitərəfli danışıqlar Qərb üçün çox vacibdir. ABŞ-ın dövlət katibi Entoni Blinken xarici işlər nazirləri arasında baş tutan son birbaşa dialoqu "Azərbaycanla Ermənistan arasında fikir ayrılıqlarını həll etməyin ən düzgün yolu" adlandırdı. Öz növbəsində, ABŞ Prezidenti 20 mart və 20 may tarixli məktublarında Ermənistanla diplomatik təmasların artırılmasına kömək göstərəcəyini və regional barışın təşviqi üçün Azərbaycanla birgə işləyəcəyini ölkəmizin başçısına bildirdi. Öz növbəsində, Ursula Fon der Lyayen də "Aİ-nin Cənubi Qafqazın təhlükəsizlik, sabit və firavan olmasına sadiq olduğunu" çıxışı zamanı bildirib", - O.Bağırov qeyd edib.

Orxan Bağırov bildirirb ki, istər ABŞ, istərsə də Aİ-nin münasibətlərin normallaşdırılması prosesində sərgilədiyi mövqe proaktiv deyil. Ənənəvi "balanslı yanaşma" davam etdirilir. Bəzi Qərb rəsmilərinin "status" və "Minsk qrupu" ilə bağlı fikirlər səsləndirməsi nəticə etibarilə Qərbin yanaşmasını natamam edir. Qərbin regionla bağlı hədəfləri bəllidir, amma bu hədəflərə çatma vasitələri üzrə qeyri-müəyyənlik mövcuddur. Belə şəraitdə Qərb bütün məsuliyyəti Azərbaycan və Ermənistan rəhbərliyinin üstünə atır. Belə yarımçıq yanaşma praktikada müsbət nəticə vermir. Ermənistan Qərb rəsmiləri tərəfindən vaxtaşırı səsləndirilən fikirlərə arxalanıb "status" məsələsini ortaya atır. Bu da sözsüz ki, Azərbaycan tərəfindən qəbul olunmur və buna görə tərəflər arasında normallaşma prosesi lazımı səviyyədə gedə bilmir. "Görünən odur ki, Qərb üçün əsas geosiyasi və geoiqtisadi məqsədlər Azərbaycan və Gürcüstanla bağlıdır. Rusiyanın regiona təsir gücünün zəifləməsi isə Ermənistanın mövqeyindən asılıdır. Belə olan halda ABŞ siyasi, Avropa İttifaqı isə iqtisadi vasitələrlə Ermənistanı daha konstruktiv siyasət sərgiləməyə sövq etməlidir. Bu məqsədlərin reallaşması üçün isə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması və bununla da təhlükəsiz şəraitin formalaşması başlıca şərtdir", - ekspert bildirib.

■ **Xanım Ursulanın səfərini və Avropaya ixrac edilən mavi yanacağın həcminin artırılmasını iqtisadi müstəvidə şərh edən iqtisadçı alim, millət vəkili Vüqar Bayramov bildirir ki, Aİ Azərbaycandan aldığı qazın həcmini 2 dəfə artırmaq və növbəti 5 ildə ən azı 20 milyard kubmetr qaz idxal etmək niyyətindədir.** Bu isə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin formalaşmasında rolunun daha da artacağı anlamına gəlir. "Rusiya-Ukraya müharibəsi fonunda Azərbaycanın geostrateji mövqeyi daha güclənməkdədir. Azərbaycan "Şahdəniz"lə yanaşı çox yaxın gələcəkdə daha 5 yataqdan ("Abşeron", "Şəfəq", "Asiman", "Ümid-Babək" və "Azəri-Çıraq-Günəşli") qaz hasil ediləcək. Bu ölkəmizin mavi qaz ixracatını artırmaqla yanaşı, Avropanın enerji təhlükəsizliyinin formalaşmasında rolunu daha da genişləndirəcək. Azərbaycan Avropa İttifaqı üçün yeganə yeni və mühim alternativ enerji mənbəyin çevrilməkdədir. "Köhnə Qitə"də Azərbaycan qazını almaq istəyən dövlətlərin sayında kəskin artımlar var. Bu ay istifadəyə verilən Yunanıstan-Bolqarıstan Daxili Şəbəkə ilə ən azı digər 4 Avropa ölkəsi Azərbaycan qazının alıcısına çevrilə bilər. Memorandum tərəflər arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsini nəzərdə tutsa da bütövlükdə İttifaqla Azərbaycan arasında strateji əlaqələrin dərinləşməsi müşahidə olunur. Yeni düzən fonunda bu Azərbaycanın geosiyasi mövqeyinin daha da gücləndirilməsinə xidmət edəcək", - deyib V.Bayramov.

Millət vəkili qeyd edib ki, Azərbaycan Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Avropa Birliyinə mavi qaz ixracatını ən çox artıran ölkədir. Bu ilin ilk yarısında Azərbaycan Avropaya qaz ixracatını əvvəlki ilin uyğun dövrü ilə müqayisədə 68,7 faiz artıraraq 3,2 milyard kubmetrdən 5,4 milyard kubmetrə yüksəldib.

"Aİ də Cənubi Qafqaz ölkələrinin əsas ticarət tərəfdaşı olaraq qalmaqdadır. Belə ki, Aİ-nin ümumi ticarət dövriyyəsində payı Azərbaycanda 36,7, Gürcüstanda 23,9, Ermənistanda 18 faizdir. İttifaq pandemiyadan əvvəlki il, yəni 2019-cu ildə Azərbaycanda 2,6, Gürcüstanda 1,2, Ermənistanda isə 1 milyard avro sərmayə qoyluşu həyata keçirib. Azərbaycanla Aİ arasında ticarət dövriyyəsi ötən il 15 milyard dollaradək yüksəkilib. Bütövlükdə ixracatımızın təxminən 48 faizə yaxını İtaliyaya yönəlib. Bu isə Avropa İttifaqının Azərbaycan üçün əsas ticarət və iqtisadi tərəfdaş olduğunu göstərir. Eyni zamanda, Avropa İttifaqının Cənubi Qafqazda ticarət dövriyyəsinin 2/3-i isə Azərbaycanın payına düşür. Bu baxımdan Azərbaycan da Cənubi Qafqazda Avropa İttifaqının əsas ticarət tərəfdaşıdır", - iqtisadçı millət vəkili bildirib. V.Bayramovun sözlərinə görə, sabah Brüsseldə Azərbaycan - Avropa İttifaqı Əməkdaşlıq Şurasının növbəti iclası keçiriləcək. Avropa İttifaqı ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq Sazişinin imzalanacağı gün də uzaqda deyil.

***✍ Vüsal Tağıbəyli***

# İran Zəngəzur dəhlizinin açılmasında maraqlı deyil

***Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə hafta.az üçün bu dəfəki söhbətimizdə ABŞ və Rusiya kəşfiyyat rəhbərlərinin İrəvan səfəri, Astana üçlüyünün Tehran görüşü, Türkiyənin BRİKS-ə üzv ola bilməsi ehtimalı, son həftələr Ermənistanın Azərbaycanı əsasən Kəlbəcər istiqamətindən atəşə tutmasının səbəbləri, Rusiya-Ukrayna cəbhəsində kəskin dönüşün mümkünlüyü və s. mövzuları müzakirə etməyə çalışdıq.***

## Müsahib

***- Ərəstun bəy, ABŞ baş kəşfiyyatçısının artıq reallaşmış Ermənistan səfərindən sonra həmin səfərin əsas məqsədi haqda öncə dediyiniz fikirdə qalırsınızmı? Demişdiniz ki, Uilyam Berns İrəvana Azərbaycanla yeni savaşın qarşısını almaq məqsədi ilə gəlib...***

- Bəli, ABŞ-ın baş kəşfiyyatçısının Ermənistan səfərinin məqsədinin məhz dediyim kimi, bölgədə savaşın və yeni cəbhənin açılmasının qarşısını almaq cəhdi kimi dəyərləndirirəm. Və Tehran görüşündə İran rəsmilərinin, o cümlədən Xamneyinin verdiyi bəyanat açıq şəkildə göstərdi ki, cənub qonşumuz Ermənistan üzərindən dəhlizin açılmasında maraqlı deyil. Və mən əminəm ki, Rusiya da bunda maraqlı deyil.

Çünki məlum üçtərəfli 10 noyabr bəyanatının Rusiyanın maraqlı olduğu bütün bəndlərinə əməl olunur. Lakin o bəndlərdə ki, Rusiya maraqlı deyil, onlar bu və ya digər şəkildə sabotaj olunur və ya ləngidilir. Və indi Rusiyanın həmin o cənuba, yəni Yaxın Şərqə aparan dəhlizlərə nəzarət etməyinin yeganə yolu hərbi qarşıdurma yaratmaqla qoşun yeridib bütün o əraziləri nəzarətə götürməkdir. Və ABŞ da çox gözəl başa düşür ki, Rusiya bunu edəcəyi halda İrana quru əlaqəsi yaratmış olur və bununla da onun Yaxın Şərqə çıxışı daha rahat şəkildə təmin edilir. Həmçinin yadınızdadırsa, Ər-Riyadda körfəz ölkələri başçılarıyla keçirilmiş görüşdə ABŞ prezidenti C. Bayden dedi ki, ABŞ Yaxın Şərqə qayıdıb və regionu Rusiya və Çinə vermək fikrində deyil. Bu, tam olaraq kontekstə uyğun gəlir...

***- Axı bəzi şərhçilər də belə bir fikir söyləyir ki, yeni savaşda Moskva maraqlı deyil, əksinə, Güney Qafqazda Rusiyaya ikinci cəbhə açmağa çalışan Qərb, ABŞ maraqlıdır?..***

- Bu mövzuda müxtəlif fikirlər ola bilər. Kimsə hesab edir ki, guya Qərb Qarabağ ətrafında yeni savaş törətməyə çalışır və Avropa, ABŞ bunda maraqlıdır. Mən isə belə düşünmürəm. Mənim fikrim belədir ki, bununla Qərb heç nə əldə eləmir. Əksinə, mümkün yeni savaş Rusiyanın cənub istiqamətində irəliləməsi üçün şərait yaratmış olur, buna rəvac vermiş olur.

Digər tərəfdən,biz Tehran görüşündə də gördük ki, Rusiya ilə İranın mövqeləri bir sıra məsələlərdə, o cümlədən Ermənistanın İranla, Xamneyinin ifadə etdiyi kimi desək, quru sərhədlərinin saxlanması məsələsində də üst-üstə düşür.

Yəni bunun başqa adı odur ki, İran Zəngəzur dəhlizinin açılmasında maraqlı deyil. Zəngəzur isə Türkiyənin bölgəyə çıxmasına şərait yaradan bir mühüm dəhlizdir. Beləliklə, mən həmin fikrimdə qalıram; yeni müharibə Rusiyaya lazımdır, çünki Putin 44 günlük müharibədə öz məqsədinə çata bilmədi - kommunikasiyalara nəzarəti ələ ala bilmədi. Və indi bunu növbəti savaş yoluyla etməyə çalışa bilər...

***- Bu, gözlənilsə də, Amerika kəşfiyyatının şefi Azərbaycana səfər etmədi...***

- Bəli, MKİ direktoru Bakıya səfər etmədi. Hərçənd, bu barədə mətbuatda, şayiə, yaxud ehtiimal xarakterli məlumatlar var idi. Belə görünür ki, bu səfərin kontekstində əsasən Ermənistan rəhbərliyi ilə danışıqlar idi və təsadüfi deyildi ki, onun ardınca Rusiya Xarici Kəşfiyyat İdarəsinin rəisi S.Narışkin də təcili İrəvana səfər etdi. Baxmayaraq ki, o, israrla iddia edir ki, onun bu səfərinin amerikalı həmkarının səfəri ilə heç bir əlaqəsi yoxdur. Belə nəticəyə gəlmək olur ki, ABŞ-ın Cənubi Qafqaz siyasətində Ermənistanın Azərbaycan-Ermənistan sülh danışıqları, sülh prosesi və Türkiyə-Ermənistan əlaqələrinin bərpasından savayı, hardasa ayrıca bir missiyası da nəzərdə tutulub. Odur ki, bu səfər yalnız Ermənistanı əhatə etmiş oldu...

***- Yeni savaş başlayacağı təqdirdə Türkiyənin Azərbaycanın yanında ötən dəfəki, yəni şəhid və qazilərin canı-qanı hesabına hərbi qələbə çaldığımız II Qarabağ savaşında olduğunun əksinə, ciddi şəkildə yer almaması variantı mümkündürmü?***

- Təəssüf ki, növbəti savaşda Türkiyənin Azərbaycanın yanında yer almaması mümkündür. Və mən düşünürəm ki, bu gün Azərbaycanda Rusiya "5-ci kalon"u əlindən gələni edir ki, Türkiyə Azərbaycandan uzaqlaşdırılsın və uzaqlaşsın. Bunun üçün müvafiq təbliğat bazası da işləyir. Bu gün Azərbaycanın çox təəccüblüdür ki, bir sıra media vasitələrində Rusiyanın geninə-boluna təbliğatı aparılır. Rusiya ilə Azərbaycan az qala qardaş dövlətlər kimi təqdim olunur. Türkiyə isə sadəcə olaraq unutdurulur. Azərbaycan media məkanında Türkiyə hansısa çox yad bir ölkə ilə faktiki olaraq eyni tezilikdə, eyni intensivlikdə xatırlanır.



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

Bu, çox pis tendensiyadır və bu tendensiya Türkiyəni proseslərədən kənarlaşdırmağa yönəlmiş həcmli bir işin tərkib hissəsi ola bilər. Bunu istisna etmirəm. Və nəzərə alaq ki, Azərbaycanın Türkiyə modeli üzrə ordu quruculuğu haqda gedən söhbətlər, əldə olunmuş anlaşmalar, o cümlədən Şuşa Bəyannaməsində göstərilən bəndlər sabotaj olunur.

***- Savaşdan söz düşmüşkən, son həftələr Ermənistan Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini niyə əsasən və demək olar ki, yalnız Kəlbəcər istiqamətindən atəşə tutur?..***

- Kəlbəcərin hədəfdə olması təbii haldır. Bu haqda çox danışmışıq. Çünki birincisi, Kəlbəcər hərbi-siyasi və geo-strateji baxımdan ən həssas nöqtələrdən biridir. Faktiki olaraq mühasirə durumunda olan bir şəhər, rayondur... Digər tərəfdən isə bu ərazi Qarabağın cənubu istiqamətinə açılan bir yoldur.

> “
>
> *10 Noyabr bəyanatının Rusiyanın maraqlı olmadığı bəndləri sabotaj olunur*

Yəni oradan rahat şəkildə Tərtərə, Tərtərdən isə Rusiyanın uğrunda illərdir mübarizə apardığı Gəncə kommunikasiya dəhlizinə yol açılır. Ona görə də, təbii ki, Moskva II Qarabağ müharibəsində qarşısına qoyduğu geo-siyasi hədəflərdən imtina etməyib. Heç belə bir fikri də yoxdur.

Çünki bu, öncələrdən dediyim kimi, strateji hədəflərdən biridir. Məhz bu baxımdan da Rusiya daim Ermənistan vasitəsilə Kəlbəcəri hədəfdə saxlayacaq. Və Kəlbəcər-Tərtər istiqamətində Azərbaycana uğursuzluq yaşatmağa çalışacaq. Çünki yalnız bu halda Kreml öz məqsədlərinə çata bilər. Mən Kəlbəcər ətrafında son vaxtlar baş verən gərginliyin əsas səbəbini məhz bunda görürəm...

***- Sizcə, burada Kəlbəcərdəki Ağduzdağ qızıl yatağının 30 il müddətinə müqavilə əsasında Türkiyənin "Artvin Maden A.Ş." şirkətinə istifadəyə verilməsinin rolu yoxdur ki? Halbuki, Zod yatağının Ermənistan tərəfində(işğaldan öncə isə Azərbaycan tərəfdə də) qızıl hasilatıyla Rusiya şirkəti məşğul olur...***

- Xeyr. Bunlar xırda məsələlərdir...

***- Türkiyə, Səudiyyə Ərəbistanı və bir sıra digər müsəlman sayılan ölkələrin Ukrayna savaşından sonra Kremllə fəal görünən yaxınlığı və hətta BRİKS-ə üzv olacaqları barədə informasiyalar sanki ölkələrin növbəti Dünya Savaşı öncəsi qruplaşma yaratması təəssüratı yaratmır ki?***

- Sadaladığınız ölkələrin BRİKS-ə qoşulması haqda informasiyalar, demək olar ki, müəyyən niyyət, bəyanat xarakterli məlumatlardır. Və mən həqiqətən düşünmürəm ki, məsələn, Avropa ilə bağlılığı, ABŞ-la bağlılığı olan, NATO üzvü olan Türkiyə bir düşərgədən digərinə sıçrayaraq gedib BRİKS-ə qoşula bilər. Onu da nəzərə alaq ki, BRİKS-ə daxil olan ölkələrin böyük əksəriyyəti, eləcə də Rusiyanın özü heç də Türkiyəyə dost münasibət sərgiləyən ölkələr deyil. Digər ölkələrin bir çoxu neytraldır. Amma Türkiyənin daha çox Pakistanla əməkdaşlığı var. O cümlədən Hindistan üçün də Türkiyə arzuolunan tərəfdaş deyil. Və belə olduğu halda Türkiyənin BRİKS-ə qoşulması çox məntiqsiz görünür. Səudiyyə Ərəbistanı və Misirə gəldikdə... Səudiyyə Ərəbistanı öz təhlükəsizliyi və hərbi baxımdan ABŞ-dan asılıdır. Onun təhlükəsizliyinə başqa heç kim təminat verə bilməz.

Odur ki, bu ölkənin də Rusiya, yaxud gələcəkdə İranla eyni təşkilatda birləşməsi inandırıcı görünmür. Misir isə xarici yardımdan son dərəcə asılı dövlətdir və onun xarici yardımının olduqca böyük bir hissəsi xaricdən gəlir.

Misir BRİKS-ə qoşularaq milyardlarla dollarlıq yardımını itirər. Bunun əvəzində o, bu təşkilatdan nə əldə edə bilər. Üstəlik, həmin BRİKS-ə daxil olan ölkələrin özlərinin arasında xeyli ziddiyyətlər var. Və bütün bunları nəzərə alaraq düşünürəm ki, bəhs etdiyiniz informasiyalar daha çox təbliğat, spekulyasiya xarakteri daşıyır. Odur ki, açığı, bunu real hesab etmirəm...

***- Ukraynada hərbi əməliyyatların Rusiyanın məğlubiyyətini tezləşdirəcək kəskin dönüşü gözləniləndirmi? Yoxsa proses hələ illərlə uzana bilər?***

- Ukraynada proses hələ bir müddət davam edəcək. Amma Rusiyanın məğlubiyyətini tezləşdirəcək amillər var ortada... Həmin amillərdən biri və birincisi artıq effektiv Qərb silahlarının NATO ölkələri tərəfindən Ukraynaya verilməsidir. Və həmin silahların fəaliyyəti artıq özünü göstərir.

Mən düşünürəm ki, qarşıdan böyük savaş mərhələsi gəlir. Avqust ayında... Və hətta ola bilər iyulun son günlərində... Çünki belə bir həlledidici döyüş olmadan hazırda yaranmış balans pozulmayacaq. Bu da o deməkdir ki, Rusiya-Ukrayna savaşı uzun müddət davam edə, hətta illərlə çəkə bilər. Amma balans dəyişəcəyi halda, məsələn, Ukraynanın xeyrinə dəyişəcəyi, yəni Rusiya işğal etdiyi ərazilərin itkilərinin artdığını görəcəyi halda ən azı atəşkəs anlaşmasına getməyə məcbur olacaq.

Mən prosesi bu cür görürəm. Amma qarşıda böyük savaş, yəqin ki, olacaq. Bu gözlənilir. Yəni artıq görünür ki, Amerika tərəfindən Ukrayna pilotlarının hazırlanması prosesi gedir. ABŞ Konqresi bunun üçün 100 milyon dollar vəsait ayırdı. Pilotları boş yerə hazırlamırlar.

Deməli, onların Rusiya ilə savaş zamanı idarə edəcəyi təyyarələr də veriləcəkdir. Unutmayaq ki, "Lend-liz" qanunu qəbul olunubdur. Və həmin qanun ABŞ prezidentinə səlahiyyət və imkan verir ki, müasir texnoloji silahların Ukraynaya verilməsini asanlaşdırsın. Digər tərəfdən, pilotların hazırlanması məsələsi müharibənin artıq müəyyən mənada Rusiyanın ərazisinə keçməsi deməkdir. Bu isə Rusiyanın iflası demək olardı. Hələlik ruslar ona görə susurlar ki, müharibə Ukraynanın ərazisində gedir. Amma savaş Rusiya ərazisinə keçdikdə təbii ki, bu ölkədə ictimai rəy kəskin şəkildə dəyişəcək. Ona görə də düşünürəm ki, bir böyük döyüş olacaqdır. Və aydındır ki, Rusiya müəyyən bir məğlubiyyətə uğramasa, hər hansı bir sazişə, hətta atəşkəs sazişinə belə, razılaşmayacaq...

***✍ Sultan Laçın***

---

İqtisadiyyat

***Avropa İttifaqı Azərbaycanla əlaqələrini genişləndirməkdə maraqlıdır. İyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" isə bu istiqamətdə yeni yol xəritəsi sayıla bilər. "Həftə içi" qəzeti olaraq yeni sənədin əhəmiyyətini, gələcək üçün yaradacağı perspektivləri enerji məsələləri üzrə ekspert İlham Şabanla müzakirə etmişik.***

# Avropa İttifaqı - Azərbaycan əməkdaşlığında yeni mərhələ

***- İlham müəllim, bu günlərdə imzalanan Anlaşma Memorandumu tərəflər üçün hansı perspektivlər vəd edir?***

- Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış sənədin perspektivlərini ölkə Prezidenti çox gözəl ifadə etdi. O bildirdi ki, bu sənəd Avropa İttifaqı ilə Azərbaycan arasında bir yol xəritəsidir. Bu sənəd sadəcə əlavə qaz alğı-satqısı kimi başa düşülməməlidir. Onun müddəalarına görə, növbəti illərdə Azərbaycanla Avropa arasında nəinki ənənəvi enerji daşıyıcılarının ticarəti baş verəcək, həmçinin "yaşıl enerji"nin inkişaf etdirilməsi mümkün olacaq.

"Yaşıl enerji"nin inkişaf etdirilməsi o deməkdir ki, qərbdə olan, Avropa Birliyində tətbiq olunan texnologiyalar Azərbaycan ərazisində qazın elektrikə çevrilməsi məsələsində də tətbiqini tapacaq. İkinci bir tərəfdən, sənəddə qeyd olunur ki, nəinki gələcəkdə "yaşıl hidrogen"in Azərbaycanla Avropa Birliyi arasında ticarəti, eyni zamanda, alternativ enerji mənbələrindən hasil edilmiş enerjinin Avropaya ixracı mümkün olacaq. Yəni, bu sadə bir qaz anlaşması deyil. Bu anlaşma o deməkdir ki, Azərbaycan artıq bazarı özü üçün müəyyənləşdirib. Bu bazarın tələblərini, standartlarını özündə ehtiva edəcək və ona uyğun da məhsul buraxacaq.



**İlham Şaban,**
enerji məsələləri üzrə ekspert

> “
>
> *Bu anlaşma o deməkdir ki, Azərbaycan, artıq bazarı özü üçün müəyyənləşdirib*
>
> *Ursula Fon d er Lyayen Bakıda qeyd etdi ki, Azərbaycan sözünə sadiq, stabil bir təchizatçıdır*
>
> *Müasir standartlara uyğun mütəxəssislərin hazırlanması, qabaqcıl texnologiyalara çıxış imkanlarının genişləndirilməsi əsas hədəflərdən olmalıdır*

***- Azərbaycan meqabazarda mövqeyini qoruyub-saxlamaq üçün hansı addımları atmalıdır?***

- Müasir standartlara uyğun mütəxəssislərin hazırlanması, qabaqcıl texnologiyalara çıxış imkanlarının genişləndirilməsi əsas hədəflərdən olmalıdır. Biz ətrafımıza boylanmalıyıq, şimalımız, cənubumuz sanksiya altındadır. Xəzərin o tayında texnologiyalar yaxşı inkişaf etməyib və yaxud da texnologiyalara çıxış məhduddur. Bu baxımdan Azərbaycan mövcud vəziyyəti yaxşı qiymətləndirməlidir. Sözügedən memorandum növbəti mərhələdə, bəlkə də yaxın bir neçə ay ərzində Azərbaycanla Avropa Birliyindəki şirkətlər arasında kommersiya sazişləri imzalanacaq. Necə ki, 2013-cü ildə sentyabrın 19-da 10 Avropa şirkəti ilə "Şahdəniz-2" layihəsi iştirakçıları qazın alğı-satqısına dair müqavilə imzalamışdı. İndi növbəti etap qazın alğı-satqısı ilə bağlı sazişlər imzalanacaq ki, yaxın 5 illikdə nəzərdə tutulan qaz həcmlərini bazara çıxarmaq mümkün olsun.

***- Siz həm şimal, həm də cənub qonşumuzun sanksiya altında olduğunu vurğuladınız. Və qeyd etdiniz ki, Azərbaycan mövcud vəziyyəti yaxşı qiymətləndirməlidir. Sizcə, yaranmış fürsətdən daha yaxşı yararlanmaq üçün Azərbaycanın əsas hədəfi nələrdən ibarət olmalıdır?***

- Bu gün Azərbaycan nəticə hasil olunması üçün lazımi addımları atır. Yəni, özünün "Şahdəniz"dən sonrakı yataqlarını hasil edə bisin. Digər tərəfdən, onu hasil etmək üçün təbii ki, uzunmüddətli dövr üçün alıcı lazımdır. Eyni zamanda, o qazı bazara çıxarmaq üçün infrastruktur lazımdır. İndiki infrastruktur tam olaraq istifadə olunur. İnfrastrukturu genişlənsdirmək üçün kapital lazımdır. Həmin kapital məsələsi faktiki olaraq həll edilib. Və nəhayət bazar lazımdır ki, bu məsələ də həllini tapır. Bütün bunları bir-biri ilə əlaqələndirmək üçün Azərbaycan özünün daxili, xarici siyasətini potensial alıcıları ilə uzunmüddətli qarşılıqlı maraqların qorunması çərçivəsində addımlar atmalıdır. Necə ki, Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenunun Bakıda qeyd etdi ki, Azərbaycan sözünə sadiq, stabil bir təchizatçıdır. O, hətta Rusiyadan fərqli olaraq ifadəsini də işlətdi.

***- Qeyd etdiyiniz kimi, Avropa İttifaqı ilə Azərbaycan arasındakı yeni anlaşma böyük perspektivlərə yol açır. Sizcə, bu anlaşma şimal qonşumuzu qıcıqlandıra bilərmi?***

- Ola bilər ki, qıcıqlandırsın. Təkcə onun yox, digər rəqiblərin də qıcığına səbəb ola bilər. Ona görə siyasi, iqtisadi, mədəni spektrlərdə özünüzü adekvat aparmalısınız. Yəni, adekvat siyasət ortaya qoymaq lazımdır. Məsələn, biz qaz satışı ilə bağlı uğurlu yola çıxa bilərik. Amma o demək deyil ki, meyvə-tərəvəz satanlar üçün situasiyanı qəlizləşdirməliyik. Deməyim odur ki, elə bir siyasət yürüdülməlidir ki, enerji daşıyıcıları ilə bağlı xarici bazarlarda əldə etdiyimiz uğurlar özünü daxili bazarda və qeyri-neft sektorunda, o cümlədən insanların həyat səviyyəsinin ildən-ilə artımında, habelə mədəni səviyyəsinin yüksəlməsində göstərməlidir. Bununla da nə vaxtsa bizə xor baxan kimsə, bizi nədəsə günahlandıra bilməsin.

***- Sözügedən Memoranduma əsasən, Azərbaycan Avropaya qaz satışını yaxın bir neçə il ərzində təqribən iki dəfəyə qədər artıracaq. Bu müddətdə ölkəmizin qaz satışından əldə edəcəyi gəlirləri nə qədər proqnozlaşdırmaq olar?***

- Gəlirlər, təbii ki, ildən ilə dəyişəcək. Gəliri bazardakı qiymət formalaşdırır. Əsas məsələ gəlirlərdən yararlanmaqdır. Yəni, bu gəlirlərdən rassional istifadə edilməlidir.

***✍ Sevinc***

# Bu gün Azərbaycan mətbuatında sistemli inkişaf var



**Cahangir Məmmədli,**
BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, professor

***Onunla, təxminən, bir il əvvəl elə Milli Mətbuatın ildönümü ərəfəsində söhbətləşmişdik. Dediyinə görə, Vətən Müharibəsindən sonra peşə bayramını daha qürurla və yüksək səviyyədə qarşılayır. O, ömrünün böyük hissəsini Azərbaycan jurnalistikasının inkişafına həsr edən bir insandır. İndi də bu istiqamətdə fəaliyyətini sevə-sevə, yorulmadan davam etdirir. Söhbət Bakı Dövlət Universitetinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, professor Cahangir Məmmədlidən gedir. “Həftə içi” qəzetinin müsahibi qocaman jurnalist Cahangir Məmmədlidir.***

## Mətbuat - 147

- Bu gün Azərbaycan mətbuatında sistemli inkişaf var. Biz 30 il idi ki, Milli Mətbuat Gününü bir az xəcalətlə qarşılayırdıq. Azərbaycanın 44 günlük Vətən Müharibəsindəki qələbəsindən sonra mətbuatımız ruhlanıb. Mən ötən söhbətlərimizdə də vurğulamışam ki, Vətən uğrunda mübarizədə, döyüşdə mətbuat da az rol oynamadı, birlik nümayiş etdirdi, Prezidentimizin yanında oldu. Ordumuz, onun Ali Baş Komandanı, bütövlükdə xalqımızın birliyi və üstəgəl Azərbaycan mediasının həmin günlər və ondan sonrakı günlər göstərdiyi performansa qərhəmanlıq deyərdim. Bu gün də Prezidentimizin işğaldan azad olunmuş yerlərdəki fəaliyyəti, quruculuq işlərinə rəhbərliyi, verdiyi göstərişlər Azərbaycan mediası vasitəsilə xalqa çox gözəl və dolğun çatdırılır. Yəni, bu proseslərə etinasız yanaşan mətbuat orqanı tanımıram. Bu gün mətbuat orqanlarımız Azərbaycanın Zəfər Yürüşünü, Zəfər Bayrağını göylərə qaldıran qurumlardan biridir. Ona görə mətbuatdan heç bir giley edə bilmərəm. Bu il də jurnalistikamız yeni, özünün növbəti ildönümünü çox yüksək səviyyədə qarşılayır. Təbii ki, sosial şəbəkələrdə narahatlıq yaratmaq istəyənlər də var. Amma mən onların fəaliyyətini jurnalistikaya aid etmirəm. Hələlik jurnalistika print jurnalistikası, televiziya və çox az sayda saytların çiynindədir. Təxminən, 10 belə saytımız var. Xüsusilə qəzetlərimizi vurğulamaq istəyirəm. Tarixdə qalacaq bir media tipi var ki, o da qəzetlərdir. Arxivlərdən, təxminən, bir 100 il sonra qaldırıb görəcəklər ki, Azərbaycan jurnalistikası 2020-ci illərdə necə işləyib. Ona görə qəzetlərimizə dəstək məsələsi çox vacibdir. Medianın İnkişafı Agentliyi bu istiqamətdə çox böyük iş görür, peşəkarlığı artırmaq, jurnalistləri mükafatlandırmaq və s. cəhətdən obyektiv addımlar atır. Bir sözlə, bu gün jurnalistikamız, mediamız inkişaf prosesindədir.

***- Bu gün mediada yeni çağırışlar formalaşıb. Hər bir mətbuat orqanı çalışır ki, yeni çağırışlara uyğun olaraq öz fəaliyyətini daha operativ və çevik şəkildə qursun. Maraqlıdır, indiki dövrdə sizin əsas informasiya mənbəyiniz televiziya, qəzet, sayt, yoxsa sosial şəbəkələrdir?***

- Düzünü deyim ki, daha çox televiziyadan məlumat əldə edirəm. Televiziya mətbuat qurumları içində tipaloji xarakterinə görə elə bir sistemdir ki, orada artıq-əskik heç nə etmək olmur və nəsə baş verəndə isə dərhal tənqid edilir. İctimai qınaq güzgüdür. Ona görə televiziyalarımız yaxşı şəkildə informasiyaları çatdırdığından mən də məlumatı oradan alıram. Qəzetlərimizi də izləyirəm. Birincisi, jurnalistika fakültəsinin müəllimi kimi bilməliyəm ki, qəzetlərimizdə, saytlarımızda nə var. Axı, biz bunları auditoriyada tələbələrlə müzakirə edirik. Ona görə hətta bəyənmədiyim qəzeti belə oxumağa məcburam, lakin bəyəndiyim qəzetlər də var. Elə sizin qəzet, “Xalq Cəbhəsi”, “525-ci qəzet”, “Şərq” qəzetləridir ki, ən çox inandığım mətbuat orqanlarındandır. Ən çox baxdığım televiziya isə “REAL” televiziyasıdır. İnformasiyadan əvvəl bu telekanal, həm də vətəndaş kimi fəaliyyət göstərir.

***- Telekanallardan danışmışkən, yəqin ki, bu yaxınlarda Mir Şahinin yerli televiziyaları sərt şəkildə tənqid etməsindən və bir sıra ittihamlar səsləndirməsindən xəbəriniz var. Sizin bununla bağlı mövqeyiniz necədir? Mir Şahin irəli sürdüyü tənqid və ittihamlarında haqlıdırmı?***

- Mir Şahin nə deyirsə, mən onun bütün mətnlərinin altından eyni səviyyədə qol çəkirəm. Mir Şahin o dərəcədə kumirimdir. Belə bir məsələ var ki, telekanalların hər birinin özünün tipoloji xarakteri var. Məhz tipoloji xarakterə görə onları təhlil etmək lazımdır. Məsələn, Azərbaycan Televiziyası rəsmi mənzərəni daha çox qabardır. Ona görə ki, dövlət kanalıdır. Bunun da tipoloji xarakterini nəzərə almaq lazımdır. İctimai Televiziya ictimai kanaldır. Onun ayrıca qanunu var və o qanunla da işləyir. Onun fəaliyyəti birbaşa ictimai maraqlara söykənir. Deyək ki, əgər Azərbaycan Televiziyası daha çox milli maraqlara söykənirsə, İctimai Televiziya həm milli, həm də ictimai maraqlara söykənir. O ki qaldı özəl telekanallara, onlara bəzən çox irad tutmaq çətindir.

> “
> *Bu gün mətbuat orqanlarımız Azərbaycanın Zəfər Yürüşünü, Zəfər Bayrağını göylərə qaldıran qurumlardan biridir*

Onlar özləri-özlərini maliyyələşdirirlər və bəzən reklam bazarından maliyyəni qazanmaq məqsədilə kütlə üçün işləyir. Deyək ki, elit qüvvələr bayaq adını çəkdiyim kanallara daha çox baxır. Kütləvi baxış isə musiqi, əyləncə olan proqramlardır. Əgər onları konsert proqramları, şou proqramlar baxımından qiymətləndirmək lazım gəlsə, məsələn, Türkiyənin Kanal D televiziyasında “Şarkılar bizi söyler” proqramı var, o proqramdan keçə bilmirəm. Orada məzmun var, ideya var, Türkiyə var, Vətən var. Yəni, o proqramda hər şey var. Əgər mahnının özündə Vətənə sevgi, məhəbbət, lirika, sevgi dünyası yoxdursa, mahnı bayağıdırsa, onu izləməyə dəyməz. Bizdə telekanallarda bayağı mahnıların olması məni həddindən artıq narahat edir.

***- Bu gün ənənəvi medianın yeni media subyektlərinə uduzduğu kimi fikirlər səsləndirilir. Ənənəvi media öz varlığını qorumaq üçün hansı addımları atmalıdır?***

- Bu, həqiqətən mürəkkəb sualdır. Əgər indiki zamanda Rəşad Məcid kimi bir jurnalist deyirsə ki, həqiqətən ənənəvi media yeni modern media sisteminə uduzur, o zaman mən bir az əlacsız qalıram. Amma uduzmaq məsələsindən ehtiyat etmək lazımdır, onu dilə gətirmək olmaz. Məsələn, mən “525-ci qəzet”in oxucusuyam, onu hər səhər almayanda özümü narahat hiss edirəm. “525-ci qəzet” və bayaq adını çəkdiyim digər qəzetlər, yəni qəzet sistemi həm yaşlı nəsil, həm də elit qüvvələr üçündür. Məsələn, Rusiyada, Türkiyədə ənənəvi mediaya olduqca diqqət edirlər. Türkiyədə hər səhər qəzetlərin xülasəsi verilir və s. İndi bu metoddan bizim telekanallar da istifadə etməyə başlayıb. Xüsusilə REAL TV hər səhər qəzetlərin xülasəsini verir və oradan informasiya götürür. Əlbəttə, bu mənada Türkiyə kanalları TRT1, Kanal D və s. onlar ənənəvi medianın inkişafına mənəvi cəhətdən daha böyük dayaq olurlar. Bizim televiziyaları bu sahədə qınamaq olar ki, ənənəvi televiziyanı ortaya qoysunlar, qəzetlərimizə diqqət yetirsinlər. Və bir də onu deyim ki, qəzetlər gərək o qədər gözəl materiallar versinlər ki, oxucu qəzeti axtarmaqda maraqlı olsun. Məsələn, “Komsomolskaya pravda” qəzeti bilirsiniz neyləyib? Görürsünüz, heç adını da dəyişməyib. Vaxtilə komsomolu atdılar, kommunisti atdılar, “Komsomolskaya Pravda” dedi ki, mən belə çıxacam. Məni oxuyan oxusun, oxumayan oxumasın. Onlar necə edirlər? Tutaq ki, informasiyanı saytda verir, sonra yazır ki, bütöv materialı qəzetimizdən oxuya bilərsiniz. Əlbəttə, o materialdan sonra oxucular gedib qəzeti alıb oxuyurlar. Yəni, bu yenilikdir, artıq bizdə də edirlər. Məsələn, “Şərq” başdan-ayağa xəbər qəzetidir. O təhlillər oxucu sistemi, təbəqəsi var ki, onlara çox vacibdir. Belə şeyləri fəallaşdırmaq lazımdır.

***- Sizin də vurğuladığınız kimi, bu gün Azərbaycan mediası inkişaf edir, əlaqələrini genişləndirir. Etiraf edək ki, aparıcı media orqanları ilə əlaqələrimiz hələ səsimizin daha yaxşı eşidiləcəyi səviyyədə deyil. Bəs, necə edək ki, xaricdəki aparıcı media orqanlarında da səsimiz eşidilsin?***

- Bu istiqamətdə də addım-addım gedirik. Vətən Müharibəsindəki qələbəmiz onsuz da xaricdə bizə marağı artırdı. Bizim Prezidentimiz obrazı xarici mətbuat orqanlarında az qala hər gün görünürdü. Prezidentin də dediyi kimi, dünyanın bir çox ölkələri 44 günlük müharibədə olan qələbənin formatını öyrənmək istəyirlər. Rusiya 6-7 aydır ki, müharibə aparır, hələ müharibənin nə qədər davam edəcəyi bilinmir. Bu mənada xarici medianın bizə artıq marağı var. Prezidentin müharibə dövründə verdiyi müsahibələr elə Azərbaycanı əməlli-başlı dünyada tanıtdı. Bizim telekanallarımızın, bəzi qəzetlərimizin də xaricdə xüsusi müxbirləri var. Onlar da xeyli iş görürlər. Bunu gücləndirmək lazımdır. Onu da danmaq olmaz ki, həm telekanalların, həm qəzetlərin o qədər böyük maliyyəsi yoxdur ki, xaricdəki xüsusi müxbiri Brüsseldən xəbər versin, 2 saat sonra Berlində olsun. Bu bizim üçün hələlik çətin məsələdir. Bir müddət sonra bu kimi məsələlər də yoluna düşəcək. Lakin psinsipcə bunlar işləyirlər, özü də Vətən sevgisi ilə işləyirlər.

***- Son olaraq Milli Mətbuat Günü ərəfəsində qələm əhlinə tövsiyələrinizi də eşitmək istərdik. Jurnalistlərə əsas nəyi tövsiyə edərdiniz?***

- Azərbaycan yeni müstəqilliyini əldə edən zaman jurnalistikada belə bir tendensiya əmələ gəldi, Qərb jurnalistikasına söykənmək, qərb jurnalistikası məktəbini öyrənmək və s. Bir müddət keçdi və məlum oldu ki, məsələn, Azərbaycanla Ermənistan arasında nə qədər fərq qoydular. Saxta şəkildə nə qədər Ermənistanı müdafiə etdilər. Əslində, mən elə bilirdim ki, Euronews kanalı, BBC-yə söykənmək olar. Biz İctimai Televiziyanı yaradanda İsmayıl Ömərov və digərləri ilə oturub BBC-nin proqram siyasətini ortaya qoyub ona oxşamaq istədik. Sonra məlum oldu ki, bu BBC Yasir Ərəfatın ölümündə birbaşa rol oynayan telekanal oldu. Yalan danışdı və s. İndi Rusiya Ukrayna müharibəsində bütün dünya Rusiyanın üstünə düşüb. Mən demirəm Rusiyada günah yoxdur. Amma belə olmaz axı? Bir dənə olsun obyektiv informasiya götürmək mümkün deyil. Mən ona görə deyirəm ki, biz əvvəlcə vətəndaş, sonra jurnalist olaq. Bu, birinci tövsiyəmdir. İkinci, Qərbin səfeh nümunələrinə baxıb ondan imtina etmək lazımdır. Azərbaycan klassik jurnalistikasına söykənmək lazımdır. Cəlil Məmmədquluzadəni, Üzeyir bəyi, Ömər Faiq Nemanzadəni öyrənmək lazımdır. Ömər Faiq Nemanzadə 1906-cı ildə deyirdi ki, bu erməni elə bir xislətdi ki, onu gətir özünə qardaş et, bağrına bas, yedir-içizdir, o da deyəcək sən də mənim qardaşımsan, amma 2 saatdan sonra səni keçi qiymətinə sata bilər. Bunu bizə vaxtilə deməyiblər. Biz indi öyrənirik ki, klassik jurnalistikamızda nə var nə yox. Ona görə də jurnalistlərimiz ancaq və ancaq klassik jurnalistikaya söykənməlidir.

✍ Sevinc

## “Böyük Qayıdış”la Qarabağa dönən həmvətənlərimizin xidmətindəyik!



**19 iyul 2022-ci il tarixində Azərbaycanlı əhalinin işğaldan azad olunan Qarabağ torpaqlarına “Böyük Qayıdış”ı başladı.**

Azad edilmiş ərazilərdə ilk mobil rabitə xidmətini təqdim edən Azercell şirkəti bu tarixi hadisəyə - 30 ilə yaxındır yurd həsrəti ilə yaşayan ailələrin Zəngilan rayonunda Ağalı kəndinə qayıtmasına öncədən hazırlaşdı. Qeyd edək ki, Zəngilana qayıdacaq ilk 100 ailə Azercell-dən 5 GB internet almaqla yanaşı, xüsusi hədiyyələrlə qarşılanacaq.

Ölkəmizdə ilk dəfə müasir texnologiyaların tətbiqi ilə “Ağıllı kənd” layihəsinin icra olunduğu Ağalı kəndində bu ilin iyunundan etibarən “Azercell Telekom” MMC-nin rəsmi satış və xidmət məntəqəsi fəaliyyət göstərir. Abunəçilərə yüksək standartlara uyğun xidmət göstərmək üçün tələb olunan bütün şərait və ən müasir avadanlıqlarla təmin olunmuş məntəqədə şirkətin digər müştəri xidmətləri mərkəzlərində həyata keçirilən əksər abunəçi əməliyyatlarının icrası mümkündür. Mağazada abunəçilərə istədikləri məhsulu tədqiq və müqayisə edib seçməkdə peşəkar satış mütəxəssisləri yardım edirlər. Paytaxt və digər bölgələrdə fəaliyyət göstərən diler mağazalarında olduğu kimi, Ağalı kəndində yerləşən mağazada da gündəlik istifadə üçün nəzərdə tutulmuş bir sıra cihazlar (MiFi, USB modem və s.), müxtəlif aksessuarlar əldə etmək, mobil telefonları kredit və nağd şəkildə satın almaq mümkündür.

Həyatın yenidən qayıtdığı ərazilərimizdə “Böyük Qayıdış”ı təmin etmək üçün yenidənqurma işləri, bütün istiqamətlər üzrə infrastrukturun bərpası, müxtəlif istiqamətli genişmiqyaslı işlər və sosial layihələr həyata keçirilir. Azercell şirkəti də özünün “Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!” strateji məqsədinə əsaslanaraq, işğaldan azad olunmuş ərazilərimizin sürətli inkişafına öz töhfəsini verir və Qarabağda mobil şəbəkə infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. Şirkət bu ərazilərdə ən müasir radio baza stansiyalarını quraşdırmaqla Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşanın qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər əraziləri yüksək keyfiyyətli mobil xidmətlərlə təmin edib. Bundan əlavə, azad olunmuş ərazilərimizdə Azercell-in şəbəkəsindən faydalanan abunəçilərə dəstək məqsədilə şirkətin Müştəri Xidmətləri komandası Zəngilanın Ağalı kəndi də daxil olmaqla, bir çox bölgələr, o cümlədən Şuşa, Cəbrayıl, Qubadlı və Kəlbəcərə səfər edib, abunəçilərə ödənişsiz xidmət göstəriblər. Azercell şirkəti böyük sevinc və qürur hissi ilə işğaldan azad olunmuş torpaqlara qayıdan həmvətənlərimizi ən qabaqcıl telekommunikasiya xidmətləri ilə təmin etmək üçün öz infrastrukturunu qurmağa davam edir, bu ərazilərin dirçəlməsi və yenidən qurulması prosesində iştirak etməyə hazır olduğunu bəyan edir.

## Milli Mətbuat Günü münasibətilə intellektual yarış keçirildi



**“Nar”, 22 iyul - Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini artıq ənənəvi olaraq təşkil olunan intellektual yarışmada bir araya gətirib. 30-dan çox media orqanını təmsil edən jurnalistlər 10 komandada biliklərini yarışdırıblar.**

İştirakçılara 7 tur boyunca milli və dünya mədəniyyətinə, tarixə, texnologiyaya aid müxtəlif çətinlikdə suallar verilib. İntellekt yarışında qalibiyyəti “Report” komandası qazanıb, “Azərtac” İA-ni təmsil edən komanda 2-ci, “Molla Nəsrəddin” komandası isə 3-cü yerləri tutublar. Qalib komandalara “Nar” tərəfindən xüsusi hədiyyələr təqdim edilib. “”Nar” olaraq, Milli mətbuat günümüzü mətbuatımızın dəyərli nümayəndələri ilə birgə qeyd etməkdən qürur duyuruq. Bu gün böyük həcmdə informasiya ilə üzləşirik, buna görə də cəmiyyətə məlumatın düzgün şəkildə ötürülməsi böyük əzm və məsuliyyət tələb edir. Bu vacib işin öhdəsindən gələn mətbuat nümayəndələrinə ”Nar” adından təşəkkür edirəm.

Milli mətbuat günümüz mübarək!”, - deyə “Nar”ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov tədbirdə bildirib. “Nar” maariflənməni təşviq etmək məqsədilə müxtəlif sosial layihələr həyata keçirir, eyni zamanda intellektual yarışların dəstəkçisi rolunda çıxış edir. Layihələr haqqında daha ətraflı məlumat üçün: <https://-www.nar.az/news/>



■ **“Hazırkı vəziyyətdə Ukrayna ilə danışıqlar aparmağın mənası yoxdur”. Bunu RT və “RİA Novosti“yə müsahibəsində Rusiya xarici işlər naziri Sergey Lavrov Kiyevlə danışıqlar prosesini şərh edərkən deyib.**

Nazir vurğulayıb ki, xüsusi əməliyyatların lap əvvəlində məhz Ukrayna rəhbərliyi danışıqların tərəfdarı olub: “Biz rədd cavabı vermədik, biz bu prosesə düzgün yanaşdıq. Və Belarusda baş tutan ilk raundlar göstərdi ki, Ukrayna tərəfində nəyisə ciddi şəkildə müzakirə etmək istəyi yoxdur. O zaman biz situasiya barədə onlara öz dəyərləndirmələrimizi təqdim etdik və dedik ki, əgər siz ciddi şəkildə çalışmaq istəyirsinizsə, bizə yazılı şəkildə bunu verin ki, biz konkret olaraq hansı danışıqlar barədə söhbət gedəcəyini bilək”.



■ **Azərbaycanda qadın sığınacaqları azlıq təşkil edir. Bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova deyib.**

O bildirib ki, Zabratda olan qadın sığınacağı 30 qadının yerləşdirilməsi üçün nəzərdə tutulub: “Qeyri-hökumət təşkilatlarının yaratdığı sığınacaqlar olsa da, bu da kifayət qədər deyil. Burada bələdiyyələrin də üzərinə ciddi vəzifə düşür. Əvvəllər sığınacaqlar olmayıb. Risk qrupuna daxil olan, zorakılıq olan ailələrlə söhbətlər aparmaq lazımdır. Rayonlarda fəaliyyət göstərən ictimai təşkilatlar, ağsaqqallar, ağbirçəklər şurası bu işdə yaxından iştirak etməlidir. Belə ailələrlə görüşlər keçirilməlidir. Bu mövzuda könüllülərin da iştirakı təmin edilməlidir”.



■ **Suriya Ukrayna ilə diplomatik münasibətləri kəsib. Bu barədə Suriya Xarici İşlər Nazirliyindəki rəsmi mənbə bildirib.**

Bildirilib ki, Suriya Ərəb Respublikası Ukrayna hökumətinin bununla bağlı qərarına cavab olaraq qarşılıqlılıq prinsipi əsasında Ukrayna ilə diplomatik əlaqələri kəsmək qərarına gəlib. Mənbə onu da bildirib ki, Ukrayna hökuməti 2018-ci ildən Suriyanın Kiyevdəki səfirliyində çalışan suriyalı diplomatların rezidentlik vizalarını yeniləməkdən imtina etdikdən sonra Ukrayna hökuməti Suriya ilə əlaqələri praktiki olaraq kəsib. Qeyd edək ki, bir müddət əvvəl Suriya qondarma ”DXR” və ”LXR”in müstəqilliyini tanıdığını bəyan edib.



■ **Baş Prokurorluq Nabrandakı zəhərlənmə ilə bağlı məlumat yayıb. Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, Xaçmaz rayonu ərazisində yerləşən istirahət mərkəzlərinin birində qida zəhərlənməsi ilə əlaqədar 11 nəfər xəstəxanaya müraciət edib, 6 şəxsə ambulator qaydada tibbi yardım göstərilərək evə buraxılıb, 5 nəfərin isə hazırda stasionar qaydada müalicəsi davam etdirilir.**

”Vəziyyətləri normal qiymətləndirilir. Hazırda faktla bağlı Xaçmaz rayon polis şöbəsində araşdırma aparılır. Zəhərlənmənin səbəbinin müəyyənləşdirilməsi məqsədilə istirahət mərkəzindən qida nümunələri götürülərək müvafiq ekspertizalar təyin edilib”, - məlumatda deyilir.



■ **Vətəndaşlıq vəziyyəti akt qeydlərinin bərpası qaydası dəyişir. Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” qərara dəyişiklik edilib.**

Dəyişikliyə əsasən, artıq xarici ölkədə tərtib edilmiş vətəndaşlıq vəziyyəti akt qeydini və ya onun mövcudluğu barədə məlumatı əldə etmək mümkün olmadıqda qeydiyyat şöbələri və ya konsulluq idarələri həmin akt qeydini bərpa edir və müvafiq şəhadətnamə verəcək. Ermənistan Respublikasında tərtib olunmuş vətəndaşlıq vəziyyəti akt qeydləri bərpa edilərkən yer adları Azərbaycanın tarixi toponimlərinə uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının tövsiyələri nəzərə alınmaqla yazılacaq.



■ **Cari ilin I yarımilinin yekunlarına dair müşavirədə Prezident İlham Əliyevin verdiyi tapşırığa əsasən, sosial islahatların növbəti ildə də davam etdirilməsi üçün təkliflər hazırlanaraq dövlət başçısına təqdim ediləcək.**

Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib. Nazir son illər sosial ödənişlərdəki ciddi artımları qeyd edib. O, son 3 il yarım ərzində Azərbaycanda 4 milyon vətəndaşı əhatə edən 3 sosial islahat paketinin icra olunduğunu deyib. Bunun üçün yalnız dövlət büdcəsindən əlavə olaraq 6 milyard manat, yəni ölkənin icmal büdcəsinin 20 faizindən çox vəsait ayrıldığını qeyd edib. S.Babayev həmin dövrdə minimum əmək haqqının 2,3 dəfə, əməkhaqqı fondunun 2,2 dəfə artdığını, əməkhaqqı fonduna əlavə 8 milyard manat yönəldildiyini bildirib.

# İlk "Ağıllı kənd"imizdə həyat başladı...

*Xəbər verildiyi kimi, 44 günlük müzəffər savaşımızda şəhid və qazilərimizin canı-qanı hesabına işğaldan azad edilmiş Zəngilan rayonununYeni Ağalı kəndində qurulmuş ilk "ağıllı" kəndimizə keçmiş məcburi köçkünlərin ilk köçü baş tutub. Bəs xalqımız və dövlətimiz üçün qürur duyulacaq hadisələrdən olan işğaldan azad torpaqlarımıza daimi yaşayış üçün dönən ilk sakinləri üçün ilk "ağıllı" kənd layihəsi, artıq keçmiş didərginləri ağuşuna alıb sevindirən bu yaşayış məskənində hansı yeniliklər mövcuddur?..*



## Aktual

### Həkəri kəndinin sahilində yerləşən "ağıllı" cənnət

Öncə bu gün artıq bir yeni kənddə birləşəcək Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin tarixi, coğrafi mövqeyi, relyefi ilə tanış olaq.

Birinci Ağalı - Azərbaycan Respublikasının Zəngilan rayonunun Ağalı kənd inzibati ərazi dairəsində kənddir.

1993-cü ildə Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

Birinci Ağalı kəndi Həkəri çayının sol sahilində, dağətəyi düzənlikdədir. Kənd yerli əhali arasında Böyük Ağalı, yaxud Aşağı Ağalı kimi də tanınır. Azərbaycan toponimiyasında "birinci" komponenti "əvvəlinci", "ilkin", "baş", "aşağı" və ya "yuxarı", "böyük" mənalarını verir. Ağalı komponenti isə burada məskunlaşmış nəslin adıdır. Etnotoponimdir.

İkinci Ağalı da eyni inzibati ərazi dairəsində kənddir. Kənd Həkəri çayının sahilində, dağətəyi düzənlikdədir. Keçmiş adı Hüseynxanlı olmuşdur. Yerli əhali arasında Orta Ağalı da adlanır. Oykonimin birinci komponenti r-nun ərazisindəki Ağalı adlanan üç yaşayış məntəqəsini bir-birindən fərqləndirməyə xidmət edir.

1993-cü ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi.

Üçüncü Ağalı - eyni inzibati ərazi dairəsində kənd. 1993-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi.

Həkəri çayının sahilində, dağətəyi düzənlikdədir. Keçmiş adı Alirzah olmuşdur. Yerli əhali arasında Kiçik Ağalı, Yuxarı Ağalı kimi də tanınır.



Hər üç kənd 28 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

Prezidentin Zəngilan üzrə xüsusi nümayəndəsi Vahid Hacıyev mediaya açıqlamasında bildirib ki, işğala qədər Ağalı inzibati ərazisi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Xüsusi nümayəndənin sözlərinə görə, Yeni Ağalı kəndinə birinci mərhələdə hər biri 10 ailə olmaqla ümumilikdə 41 ailə köçürülür. İlkin mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var...

"Ağıllı kənd" layihəsi haqqında qısa arayış:

Bu gün bir çox inkişaf etmiş ölkələrin üstünlük verdiyi "ağıllı şəhər" və ya"ağıllı kənd" layihələrinin nə demək olduğunu qısaca xatırladaq.

Bu layihələrin əsas ideyası bütün xidmət və obyektləri vahid sistemdə birləşdirib idarə etməkdən ibarət olan, real zaman kəsimində şəhər və ya kəndlə bağlı bütün informasiyaların müəyyən mərkəzdə cəmləşməsi və həmin informasiyalar üzərindən situasiyanın tələbinə uyğun effektiv addımlar atılmasıdır. Bu üsul 2000-ci ildən dünyanın gündəmindədir. Getdikcə daha çox ölkə bu üsuldan yararlanmağa çalışır.

Bu konsepsiyanın tətbiqi rəsmi qurumların yerli sakinlər, o cümlədən də infrastrukturla birbaşa əlaqə qurmağa, kənddə baş verənləri və kəndin necə inkişaf etdiyini izləməyə imkan verir. "Ağıllı kənd" konsepsiyasında İKT-nin imkanları kənddə xidmətlərin keyfiyyətini artırmaq, xərcləri və resurs istehlakını azaltmaq, vətəndaşlarla hökumət arasında təmasları artırmaq üçün istifadə olunur.

### Misirdəki "ağıllı kənd" bu anlamdan çıxaraq qısa müddət ərzində möhtəşəm biznes mərkəzinə çevrilib

**Avropa Birliyində bu konsepsiya xüsusi önəm daşıyır. "Ağıllı" şəhər və kəndlərin çoxalması üçün göstərilən təşəbbüslərə hərtərəfli dəstək verilir.**

Türkiyədə "Vodafon"un dəstəyi ilə yaradılan "Ağıllı köy" layihəsi, Qazaxıstanda "Villic Qazaxıstan" layihəsi, Ruandada "Smart villic" proyekti, Ukraynada "Avtonom ağıllı kənd", Almaniyada "Ağıllı kənd" layihəsi icra edilib və bu yerlərdə ağıllı ticarət və logistika, ağıllı enerji üsullarından istifadə edilir.

Müsəlman ölkələrindən 2001-ci ildə Misir də ağıllı kənd konsepsiyasına müraciət edib. Bunun üçün Qahirə yaxınlığında 450 fedan (ərəb ölçü vahidi. Bir fedan 4 200 kv.metrdir). ərazi ayrılıb. Bu, "ağıllı kənd" anlamından çıxaraq qısa müddət ərzində möhtəşəm biznes mərkəzinə çevrildi. Bu ərazi o qədər məşhurlaşdı ki, Misirin bir çox nazirlikləri belə həmin əraziyə daşındılar. Buna səbəb o idi ki, həmin ərazidə hər şey bir-biri ilə vəhdətdə idi və bir-birini tamamlayırdı.

### Urbanizasiyaya qarşı əsas vasitə

**"Ağıllı kənd" layihəsinin tətbiqində əsas məqsəd kənd yerlərində yaşayan insanların həyat səviyyəsini yüksətməklə onların şəhərlərə köçünün qarşısını almaqdır.** Avropanın bir çox ölkəsində gənc yaşda olan insanların kəndlərdən böyük şəhərlərə köç etməsi urbanizasiya prosesini sürətləndirir ki, bu da öz növbəsində ciddi ekoloji, iqtisadi və siyasi problemlərə səbəb olur. Bu səbəbdən də "Ağıllı kənd" konsepsiyası urbanizasiyanın qarşısını almaqda əsas vasitə hesab olunur...

### "Ağıllı kənd"in mərkəzində ağıllı fermer təsərrüfatları dayanmalıdır

**Ərazisi Azərbaycanla müqayisədə iki dəfə kiçik olan Niderland məhz "Ağıllı fermer təsərrüfatları"nın hesabına kənd təsərrüfatı məhsullarının istehsalında Azərbaycandan dəfələrlə öndədir.** "Ağıllı kənd"lərdə ənənəvi suvarma üsullarının yerinə müasir suvarma sistemlərindən istifadə olunmalıdır. Dron texnologiyası həm suvarma, həm də əkin işlərində geniş tətbiq edilməlidir. Heyvandarlıq sahəsində məsafədən idarəetmə genişləndirilməlidir. Heyvanların üzərinə yerləşdirilən cihazlarla onlara nəzarət imkanları artırılmalıdır. Məhsulun əkilməsində, biçilməsində və daşınmasında insan əməyi minimum səviyyəyə endirilməlidir. İnsan əməyinin yerini müasir texnologiyalar tutmalıdır. Belə bir vəziyyət həm insanın əmək şəraitini yaxşılaşdırır, həm də məhsuldarlığı artırır...

Hələ 2018-ci ilin noyabrında Qax rayonuna səfər edən prezident İlham Əliyevə ilk dəfə olaraq ölkədə yaradılması planlaşdırılan «ağıllı" kənd layihəsi təqdim edilib. İlkin hazırlıq işləri başlayıb layihənin detalları dəqiqləşdirilsə də, 2020-ci ilin 44 günlük savaşındakı qələbəmiz bu layihənin ilk olaraq işğaldan azad edilmiş torpaqlarımızda gerçəkləşdirilməsi məsələsini önə çəkib.

Azərbaycanda "ağıllı şəhər" konsepsiyasının tətbiqi ilə bağlı ciddi araşdırma aparılması və pilot layihə həyata keçirilməsi imkanlarının müəyyən edilməsi Prezident İlham Əliyevin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda öz əksini tapıb.

2021-ci il aprelin 19-da isə Azərbaycan Prezidenti "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" Sərəncam imzalayıb.

2021-ci il aprel ayının 28-də işğaldan azad edilən Zəngilan rayonunda Prezident İlham Əliyevin iştirakı ilə ilk "Ağıllı kənd" layihəsinin təməli qoyulub.

2022-ci il mayın 27-də Prezident və birinci xanımın iştirakıyla Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiyalar Mərkəzinin direktoru Əkbər Abbasov mediaya açıqlamasında Yeni Ağalı "ağıllı" kəndində hansı yeniliklərin olacağı haqda danışıb:

"Ağıllı kənd"də də həm bitkiçiliklə, həm də heyvandarlıqla, ağıllı kənd təsərrüfatı ilə məşğul olan fermer icma qrupu olacaq. Eyni zamanda, sadaladığım dövlət qurumlarının - məktəbin, tibb müəssisəsinin, idarəetmə müəssisəsinin, hidroenergetika stansiyasının işində yerli sakinlər çalışacaqlar. Həmçinin, orada bir sıra istehsal sahələrinin, məsələn, pendir istehsalı, beton istehsalı müəssisələrinin qurulması nəzərdə tutulur".

Mütəxəssis bildirib ki, Azərbaycanın ilk "ağıllı" kəndində fermerlər yüksək texnologiyalar vasitəsilə məhsuldarlığı dəfələrlə artırmağa nail ola biləcəklər.

"Burada torpağın, tutaq ki, 30 santimetr dərinliyinə kimi yerləşdirilən sensor vasitəsilə 100 faiz dəqiqliklə nəmliyin hansı səviyyədə olduğunu bilirik. Orada yerləşdirilən lokal iqlim hava stansiyalarında isə yaxın 2 həftədə həmin ərazidə yağış olub-olmayacağına 90 faizdən çox dəqiqliklə qərar verən sistem var. Təbii ki, belə şəraitdə suvarma haqqında da dəqiq qərar vermək mümkün olacaq. Normalda biz bunu təcrübələrimizə və keçmişdən gələn əsaslandırmalarımıza əsasən edirik.

Tibb xidmətinin təşkilində çox maraqlı yenilik var. Oradakı yerli tibb xidməti müəssisəsində köşk xarakterli bir qurğu var. Həmin qurğu insanların göz bəbəyinin ölçüsündən tutmuş qandakı şəkərin miqdarı, təzyiq və s. bu kimi əsas meyarları ölçərək ilkin olaraq diaqnoz qoymaq imkanı yaradır. Ağalı sakinləri üçün maraqlı bir təşəbbüs də yaradılıb. Bir çox yerli və xaricdə yaşayan, çalışan həkimlər də bu təşəbbüsə qoşulublar. Həmin qurğu əldə etdiyi şəxsi məlumatları bu maraqlı təşəbbüsə qoşulan azərbaycanlı həkimlərə birbaşa göndərir və artıq həkimlər monitorun digər tərəfində həmin köşkün ötürdüyü datalara baxaraq Ağalı sakinlərinə birbaşa diaqnoz qoymaq xidməti də göstərəcəklər. Bu, təbii ki, pullu xidmət deyil. Onlar hamısı könüllü olaraq bu işdə çalışmağa razı olan həkimlərdir".

### "Ağalı kəndi və ətrafında minalar yoxdur..."

"Sizə tam arxayınlıqla deyə bilərəm ki, kəndin qurulduğu ərazidə, tək yaşayış evlərinin yerləşdiyi ərazi yox, kəndin yaxınlığında yerləşən örüş-otlaq sahələri, kənd təsərrüfatı sahələri, süni yaradılan sututar və onun ətrafı, kommunikasiya xətlərinin ətrafı və s. ümumiyyətlə, xəritədə Ağalı kəndinə ayrılan bütün ərazilər tam olaraq minalardan təmizlənib və təhlükəsiz zonadır. Ağalı kəndi və ətrafında minaların olması ilə bağlı söhbət gedə bilməz", - deyə Mərkəz direktoru vurğulayıb.

### Bu tip şəhər və kəndlərin inkişafı yerli istehsal sektoruna investisiyaların sürətlənməsi ilə müşayiət edilməlidir

**Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisadçı ekspert Elşad Məmmədov işğaldan azad torpaqlardakı ilk "ağıllı" kəndə qayıdışın başlanması faktını ölkənin iqtisadi inkişafı baxımından dəyərləndirib.**

"Ağıllı" kənd və "ağıllı" şəhər layihələrinin işğaldan azad olunmuş ərazilərdə tətbiqi, sözsüz ki, bir sıra istiqamətlər üzrə ölkənin sosial-iqtisadi və texnoloji nöqteyi-nəzərdən inkişafına şərait yaradacaq. Nəzərə almaq lazımdır ki, bu layihənin reallaşdırılması bir tərəfdən də enerji qoruyucu texnologiyaların tətbiqi ilə öz effektini verməlidir. Bu da çox önəmlidir. Ona görə ki, bu gün enerji təhlükəsizliyi və enerji balansının təmin edilməsi ilə bağlı məsələlərin nə dərəcədə aktual olduğu aydın şəkildə görünür. Digər tərəfdən, unutmayaq ki, bu texnologiyaların tətbiqi ölkədə bir sıra istiqamətlər üzrə məhz yeni texnoloji inkişafın sürətlənməsinə şərait yaradacaq. Bu tip şəhər və kənd infrastukturlarının işlək vəziyyətdə qalması, onlara xidmət olunmasının özü texnoloji proseslərin tətbiqinə və sürətlənməsinə aktiv şəkildə şərait yaratmış olacaq. Bütün bunlar iqtisadiyyata multipklativ effekt verəcək və bu sahələrlə bağlı olan istehsala təkan verəcək.

Burada çox önəmli olan digər məsələ ondan ibarətdir ki, maksimum şəkildə bu tip şəhər və kəndlərin sonrakı mərhələlrədə inkişafıyla bağlı olan investisiyalar yerli istehsalla əlaqələndirilməlidir. Əks halda bu ölkədən valyuta axınına və son nəticədə idxalın səviyyəsinin yüksəlməsinə səbəb olacaq.

Ona görə də bu tip şəhər və kəndlərin inkişafı yerli istehsal sektoruna investisiyaların sürətlənməsi ilə müşayiət edilməlidir ki, bu reallaşarsa, bu baş verərsə, zənnimcə, milli iqtisadiyyatın dayanıqlı inkişafına ağıllı şəhər və kənd layihələrinin tətbiqi öz təkanını verməlidir".

Onu da deyək ki, artıq dövlət səviyyəsində işğaldan azad olunmuş daha bir yaşayış məntəqəmizdə - Füzuli rayonunun Dövlətyarlı kəndində də yeni salınacaq "Ağıllı kənd" layihəsi təsdiqlənib.

2021-ci il oktyabrın 17-də Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Dövlətyarlı kəndində yeni salınacaq "Ağıllı kənd" layihəsi ilə tanış olublar.

Yaşıl və alternativ enerjinin, "ağıllı idarəetmə" sisteminin tətbiq ediləcəyi "Ağıllı kənd" layihəsinə əsasən üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Burada, həmçinin məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq, bazar yaradılacaq. Kəndin ətrafında isə "Ağıllı kənd" təsərrüfatı sahəsi olacaq. Beləliklə, sakinlərin rahat yaşaması və kənd təsərrüfatı ilə məşğul olması üçün bütün zəruri işlər həyata keçiriləcək.

Kənddə biznes layihələri də icra olunacaq. Burada kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Bu müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaq.

Kənddə Köndələnçay su anbarı əsasında ağıllı akvakultura sistemlərinin tətbiqi hesabına ixracyönümlü balıqçılıq təsərrüfatının qurulması da nəzərdə tutulub. Burada quşçuluq təsərrüfatı da yaradılacaq, ilkin mərhələdə 85 daimi iş yeri olacaq...

İnşAllah, işğaldan azad edilmiş digər ərazilərimizdə, o cümlədən müvəqqəti olaraq Rusiyanın rəsmən sülhməramlı sayılan kontingentinin nəzarətindəki Xocalı, Xankəndi, Ağdərə, Xocavənd və s. məntəqələrimizdə də soydaşlarımızı ağuşuna alacaq "ağıllı" şəhər və kəndlərimizin inşasının şahidi olacağıq.

*✍ Sultan Laçın*

---

**Son zamanlar ölkəmizdə intihar hallarının sayı artıb. Özlərinə qəsd edənlər müxtəlif peşə sahibləri, gənclər, məktəblilər, hətta müharibədə iştirak etmiş qazilərimizdir. Bəzən mətbuatın, sosial şəbəkə istifadəçilərinin intihar xəbərlərinə daha çox diqqət ayırması ciddi neqativlərə yol açır, psixoloji durumu zəif olan insanların suisidə meylliyini daha da artırır. Təsadüfi deyil ki, Medianın İnkişafı Agentliyi tərəfindən KİV-lərdə intihar xəbərləri ilə bağlı xüsusi bəyanat da yayıldı. Müəyyən tövsiyyələrə əməl edilməsinə çağırışlar səsləndirildi. Cəmiyyətimizdə azyaşlı uşaqların, gənclərin, xüsusilə də qazilərimizin intihar xəbərlərindən siyasi məqsədlər üçün istifadə etməyə cəhd göstərənlər də tapılır.**

Problem

# İntihara aparan yol



### "Verter effekti", "müharibə sindromu..."

Əslində problemə iki istiqamətdə yanaşmaq daha doğru olardı:

1. İntihar xəbərlərinin geniş şəkildə tirajlanmasının neqativ təsirləri.

2. Müharibə iştirakçılarının suisidə meylli olma səbəbləri.

Ekspertlər bildirirlər ki, Psixologiyada "Verter effekti (sindromu)" deyilən bir fenomen mövcuddur. Effekt ilk dəfə dahi alman yazıçısı Yohann Volfqanq Götenin "Gənc Verterin iztirabları" adlı əsəriylə əlaqədar müşahidə olunduğundan bu əsərin baş qəhrəmanının adı ilə də adlandırılıb. Əsər Verter adlı personajın intiharı ilə bitir. Əsərin təsir gücü o dərəcədə böyük olur ki, onun təsiri ilə özünəqəsd epidemiyası Avropanı bürüyür. Fenomen o qədər güclü səviyyə alır ki, bir çox ölkələrdə əsərin çapı və yayılması dövlət səviyyəsində qadağan edilir. Fenomenin izahını verən sosioloq Devid Filips 1947-1962-ci illər ərzində ABŞ-ın ayrı-ayrı ştatlarında baş verən intiharlarla, həmin ştatın mətbuatında intiharlar barədə dərc olunan materialları əlaqələndirərək bu qənaətə gəlir ki, hansı ərəfədə hansı ərazinin mətbuatında intihar faktları barədə ardı-arası kəsilməyən geniş materiallar dərc olunubsa, orada bundan sonra intiharların sayı da həndəsi silsilə üzrə artmağa başlayıb. Onun tədqiqatlarına görə, intihar halının epidemiya şəkli alıb yayılmasında bu intiharlar barədə mətbuatın geniş materiallar dərc etməsi əlahiddə rol oynayır. Özü də, mətbuatda hansı məqam, hansı formalı intihar xüsusi qeyd olunur, vurğulanırsa, növbəti intiharçılar da özlərini məhz həmin qaydada öldürür, intihar stilində məhz həmin məqamı vurğulayır, saxlayırlar.

Göründüyü kimi, bəzən oxunaqlı xəbər xətrinə media olaraq bizlər də istəməsək belə, intihar xəbərlərini geniş şəkildə tirajlamaqla problemin daha da dərinləşməsinə səbəbiyyət veririk.

Təəssüflər olsun ki, 44 günlük Vətən Müharibəsindən sonra Azərbaycanda da müharibə iştirakçıları arasında intihar hallarına rast gəlinir. Bəs bəzi müharibə iştirakçılarının intihara meylli olmasına səbəb nədir. Bir neçə faktı diqqət yetirək.

Məsələn, BBC-nin araşdırmasına görə, 2012-ci ildə Əfqanıstanda Talibanla döyüşərkən öldürülənlərdən daha çox britaniyalı əsgər intihar edib. "Panorama" televiziya proqramının məlumatına görə, həmin il fəal ordunun 21 əsgəri, üstəlik 29 veteran intihar edib. Əfqanıstanda eyni zaman kəsiyində döyüşdə həlak olan Britaniya əsgərlərinin sayı 44-ə bərabərdir. Böyük Britaniyanın Müdafiə Nazirliyi bildirir ki, hərbi qulluqçular arasında intihar, eləcə də posttravmatik stress pozğunluğu - TSSB mülki əhali ilə müqayisədə aşağıdır. Britaniya ordusunda intihar etmək qərarına gələn fəal ordunun əsgərlərindən biri də 2009-cu ilin yayında Əfqanıstanın Helmand əyalətində "Panteranın pəncəsi" əməliyyatında iştirak edən kiçik serjant Den Kollinzdir. Uels Qvardiyasında xidmət edən Kollinz piyada əleyhinə minanın partlaması nəticəsində iki dəfə yaralanıb və bir ayağını itirib. Orduda Collins-ə TSSB diaqnozu qoyulub. 10 aylıq fasilələrlə və yenidən başlayan müalicədən sonra həkimlər Kollinzə onun sağlam olduğunu və tezliklə vəzifəsinə qayıda biləcəyini bildiriblər. Sonrakı üç ay ərzində o, üç dəfə özünü öldürməyə cəhd edib. 2011-ci ilin son günündə serjant Kollinz evindən çıxdı, hərbi formasını geyindi və Qərbi Uelsin Pembrokeshire bölgəsindəki dağlara gedib. O, mobil telefonuna vida videosu çəkib, bundan sonra özünü asıb. Psixiatriya həkimi Claudia Herbert deyir ki, TSSB bədənin şiddətli şoklara təbii reaksiyasıdır. Xəstəliyin özünü büruzə verməsi illər çəkə bilər, lakin terapiya mümkün qədər erkən başlasa, müalicə edilə bilər. TSSB simptomlarına travmatik hadisələrin qeyri-iradi təkrarlanan xatirələri (flashbacks), yüksək səviyyədə narahatlıq və depressiya daxildir.

Digər bir fakt. Hazırda qızğın döyüşlərin getdiyi Ukrayna. Statistik məlumatlara görə, 2018-ci ilə qədər Donbassda Ukrayna ordusunun on minlərlə əsgəri döyüşüb. Hər kəs normal həyata qayıda bilməyib. Son dörd ildə ən azı min veteran intihar edib. Posttravmatik sindrom, və yaxınların dəstəyinin olmaması intiharların artmasına səbəb olub. Eyni zamanda, Ukrayna dövləti döyüşçülərin psixoloji reabilitasiyası kimi mühüm sosial işlərdən faktiki olaraq geri çəkilib.

Ümumiyyətlə, hərbçilər arasında intiharların çoxu müharibədə aldıqları psixoloji travma ilə bağlıdır. Bu, bir vaxtlar Qərbdə "Vyetnam", az sonra SSRİ-də "Əfqan sindromu" adını aldı. Şərqi Avropa Psixoanaliz İnstitutunun rektoru Mixail Reşetnikovun sözlərinə görə, post-travmatik sindrom müharibədən keçmiş hər kəsdə bu və ya digər dərəcədə özünü göstərir. Psixoloji reabilitasiya və yaxınlarının dəstəyi olmadan, alkoqolizm, boşanma və xüsusən də intihar riski daha yüksəkdir.

Göründüyü kimi, Azərbaycanda da müəyyən kateqoriyadan olan insanların intihar etməsinin səbəbi digər dövlətlərdə olduğu kimidir. Lakin Azərbaycan dövləti müharibədə psixoloji sarsıntıya məruz qalan hər bir veteranına psixoloji dəstəyin verilməsi üçün çoxsaylı proqramlar reallaşdırır. Məhz bunun nəticəsidir ki, müharibədən keçən dövrdə digər ölkələrdə hərbi əməliyyatlara qatılanların intihar statistikası ilə müqayisədə bu göstərici ölkəmizin üçün çox aşağıdır. Bu proses indi də davam etməkdədir.

**Statistika**

*2020-ci ildə 45 979 amerikalı intihar edib. İntihar ABŞ-da ölüm hallarının 12-ci səbəbidir. Hər gün təxminən 125 amerikalı intihar edərək ölür. ABŞ-da hər 11,5 dəqiqədə bir intihar hadisəsi baş verir. İntihar, 15-24 yaşlı amerikalılar üçün 3-cü əsas ölüm səbəbidir.*

*Hər il dünyada 800.000-ə yaxın insan intihar edərək ölür ki, bu da təxminən hər 40 saniyədə bir ölüm deməkdir. İntihar 15-24 yaş arasında dünyada 2-ci ölüm səbəbidir.*

*Odlu silahla intiharlara kişilər və qadınlar arasında ən çox rast gəlinir. Zəhərlənmə qadınlarda ən çox görülən intihar üsuludur.*

*✍ Azad*

# Vətən mənə "Oğul!" desə...

**44 günlük Vətən Müharibəsi Azərbaycanın Müzəffər Ordusunun Zəfəri ilə başa çatdı. Torpaqlarımızı işğaldan azad edən igid oğullarımız Ali Baş Komandanın rəhbərliyi ilə öz ali məqsədinə çatmaq üçün canından, qanından keçdi. Vətən Müharibəsində canını torpağa fəda edən 3000-ə yaxın döyüşçü Şəhidlik zirvəsinə ucaldı. Vətənə olan borclarını canları ilə ödədilər. Eləcə də Vətən uğrunda sağlamlıqlarını itirən əsgərlərimiz Qazi oldu.**



## Müzakirə

Vətən, uğrunda Şəhid, Qazi olan əsgərinə "Oğul!" dedi. Müharibədənsonrakı dövrdə Qazilərimizin reablitasiya prosesi, sosial təminatlarının yaxşılaşdırılması yönündə atılan addımlar davam edir. Müharibənin ağır fəsadlarını daşıyan bir çox döyüşçülərimizin, qazilərimizin hələ də xüsusi dəstəyə ehtiyac duyduğu müşahidə olunur. Biz qazilərimizə, şəhid ailələrinə öz borcumuzu verə bilirikmi?

"Həftə içi" qəzeti II Qarabağ savaşından zəfərlə çıxan qalib əsgərin - qazinin bugünkü durumuna diqqət çəkib. Bu gün Qazilərimizi qürurlandıran, narahat edən məqamlar nədir?

■ **II Vətən Müharibəsi Qazisi Əfzələddin Ağabəyli:**

- Qələbə bizimdir, həmişə də bizim olacaq. 44 günlük müharibədə mənə qürur verən o oldu ki, bir taborun 3 Vətən Müharibəsi Qəhrəmanı adını alanlardan biri də mən oldum. Bunlardan biri Şəhid - polkovnik-leytinant Vüqar Ağayev, ikincisi - Şəhid mayor Məmmədov Xəyal, üçüncüsü isə mən idim. Bugünkü gündə özüm-özümlə qürur duyuram, dövlətimə, cənab Ali Baş Komandana təşəkkür edirəm ki, bir könüllü əsgərə bu adı verdilər. Bunun özü ən böyük qələbədir. Mən Cəbrayılın azad olunmasına görə "Cəsur döyüşçü" medalı ilə, Laçının, Qubadlının azad olunmasına görə "İgidliyə görə" medalları ilə təltif olunmuşam. Dövlətimə ona görə təşəkkür edirəm ki, həmişə öz əsgərinin yanındadır.

Uzun müddət müalicə olundum, hələ də müalicəm davam edir. Mənim birgünlük müalicəm 78 avro civarındadır. Bunu da dövlət qarşılayır. Mənim özümə qalsa, heç vaxt belə vəsaitlə müalicəmi apara bilməzdim. Dövlət bu mənada da öz dəstəyini əsgərindən əsirgəmir. Vətən uğrunda can qoyan hər bir insana dövlət öz qollarını açır. Ona görə də bu gün Ulu Öndərimiz demişkən, "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Qürurlanıram ki, öz rayonundan, balaca bir kənddən bu titula layiq bilinən ilk şəxsəm. Biz müharibəyə könüllü olaraq, ailəvi şəkildə getmişik.

Qardaşımoğlu Ağabəyli Xəyyam, əmimoğlu Ağabəyli Ağabəy, bibimnəvəsi Əliyev Lətif və mən. Şükür Allaha ki, hər birimiz sağ-salamat geri dönmüşük. Müxtəlif zamanlarda dönməyimizə baxmayaraq, şükür Allaha ki, bugünkü gün burada varıq, qalib olaraq geri gəldik. Dövlət öz əsgərinin yanında oldu, xalq dövlət, Ali Baş Komandanın vəhdəti birliyi oldu...

Bəzən deyirlər ki, yalançı qazilər də ortaya çıxır. Belə hallar olur. Bir nəfər var idi, onu elə təbliğ etmişdilər ki, sanki qəhrəmandır. Bunun bircə dənə medalı var. Bu qazi veteran olduğuna görə, 86 manatı da ala bilmir. Yaxşı, bunu ala bilmirsə, buna dövlət hansı qaziliyi verib? Amma çəliklə gəzir. Düşünürəm ki, o, əsl qazi deyil. Guya tamamilə psixologiyası pozulmuş durumdadır, halbuki o insan heç bir müayinələrə də gəlmir. Hansı bölgədən olmasından asılı olmayaraq, istənilən hərbi komissarlığa yaxınlaşırsan, onlar göndərişlə səni Bakıya - Baş Klinik Hospitala göndərirlər. Orada hər bir insan pulsuz müayinə olunur, istər könüllü, istər səfərbərlik, istərsə də xidmət dövrünü başa vurmuş hərbçi... Yeni hərbi komissarlıq bunu edir. Yeni dövlət təmin edir. Nə zaman səhhətində bir çətinliyin oldu, heç mülki həkimə getmə, Hərbi Hospitala gedə bilərsən. Bir göndəriş alırsan, gəlib bütün müayinələrdən keçirsən. Hansı ki, mülki həkimlərə getsən, həmin müayinə və müalicələrə görə 400-500 manat ödəməli olarsan. Adi MRT-nin biri 90 manatdan başlayır. Dövlət qazilər üçün bunun hamısını pulsuz edir. Əgər qazi deyilən adam belə müayinələrə gəlmirsə, deмək yalan danışır. Bu, ona bənzəyir ki, məni bir yerə qonaq çağırırlar, mən getmirəm. Sonra da deyinim ki, o insanın süfrəsi yaxşı deyildi?! Mən onu necə deyə bilərəm?! Dövlət mənə hər şərait yaradıb. Niyə dövlətimizn əleyhinə çıxım!? Niyə sabah düşmən də bunu görüb dünyaya yaysın ki, guya Azərbaycan əsgərinə baxmır, əsgərlərin hamısı döyüşə getdiyinə peşmandır... Bu, məqsədəuyğun deyil. Bu gün o qələbəni qeyd etməliyik. Eləcə də hər bir insan öz haqqını özü tələb etməlidir...



■ **I qrup Qarabağ əlili, Qazi Əhməd Abbasov:**

- Mən kiçik çavuş, snayperçi olmuşam. Bu gün bir döyüşçü kimi məni qürurlandıran odur ki, düşmənə qarşı layiqincə döyüşdüm. Xocalı soyqırımını törədən cinayətkarların cəzasını verdim, bacardığım qədər qısasımızı aldım. Qürur duyuram ki, torpaqlarımız işğal altında deyil.

Xalqımız, millətimiz rahat öz rayonlarına gedib yaşaya biləcək. Eləcə də işğaldan azad olunmuş ölkənin vətəndaşı olmaq özü qürurvericidir. Təbii ki, Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan bu qələbənin bundan gözəl qürurverici məqamı ola bilməz.

Mən kiçik çavuş, snayperçi kimi Suqovuşanın azad olunmasında iştirak etdim. Suqovuşan azad olunandan sonra Ağdərə yolunda başımdan snayper gülləsi ilə yaralandım. Həkimlərin səyi, dövlətin dəstəyi ilə həyata qayıtdım. Sol tərəfim iflic olub. Suqovuşanın azad olunmasına görə "İgidliyə görə" medalı ilə təltif olunmuşam.

Aldığım xəsarətlə bağlı sağlamlığım tam bərpa edilməyib. İlk vaxtlar əlillik, təqaüd ala bilmədim. Amma indi alıram, I qrup əliləm. Dövlət tərəfindən mənə maşın, ev verilib. Sosial təminatla bağlı bir çox məsələ həll olunub. Buna görə dövlətimə təşəkkür edirəm. Digər məsələ odur ki, I qrup əlil olduğum üçün mənə iş vermirlər. Dörd övladımla təqaüdlə dolanmaq çətindir. Onu da qeyd edim ki, Abşeron ərazisində qeydiyyatdayam. Abşeron icra başçısından çox razıyam. İcra başçısı şəhidlərə, qazilərə xüsusi diqqət ayırır. Bəzi məmurlar var ki, şəhid ailələrinə, qazilərinə diqqətsizlik edir. Abşeron icra başçısı bizimlə görüşür, diqqət ayırır, problemlərimizi həll edir.

✍ *Tahirə Qafarlı*

## HƏFTƏ REYTİNQ

### Həftənin SAZİŞİ



İyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar.

### Həftənin GÖRÜŞÜ



Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan XİN rəhbəri Ararat Mirzoyan arasında ikitərəfli görüş keçirilib. İkitərəfli görüşdən sonra geniş tərkibli nümayəndə heyətlərinin görüşü olub. Görüş zamanı regional, nəqliyyat və s. məsələlər müzakirə olunub.

### Həftənin TƏYİNATI



Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsinə təyinat həyata keçirib. Sərəncama görə, Şahin Soltan oğlu Bağırov Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini təyin edilib. Sənədə əsasən, Dövlət Gömrük Komitəsinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Şahin Bağırova həvalə edilib. Qeyd edək ki, Ş.Bağırov bundan əvvəl DGK sədrinin müavini vəzifəsini tutub, o, 2018-ci ildə vəzifəsindən azad edilib.

### Həftənin QƏLƏBƏSİ



Ölkəmizi Çempionlar Liqasında təmsil edən "Qarabağ" 2-ci təsnifat mərhələsində ilk oyununu keçirib. Ağdam klubu Tofiq Bəhramov adına Respublika stadionunda İsveçrənin "Sürix" komandası ilə qarşılaşıb. Qarşılaşma Qurban Qurbanovun komandasının 3:2 hesablı qələbəsi ilə başa çatıb. Qeyd edək ki, bu komandalar arasındakı cavab matçı iyulun 27-də İsverçədə keçiriləcək.

### Həftənin PİLOTU



Böyük Britaniyanın Baş naziri Boris Conson Kral Hərbi Hava Qüvvələrinə məxsus "Tayfun" qırıcıları ilə uçuşunu videoya çəkib. O, döyüş təyyarəsinin təlim uçuşunda iştirak edib. Videonu təyyarənin kabinəsindən Conson özü çəkib. Qeyd edək ki, Boris Conson Böyük Britaniyanın Baş naziri vəzifəsindən və Mühafizəkarlar Partiyasının lideri postundan istefa verib. Lakin o, yeni Baş nazir seçilənə qədər partiya və hökumətin rəhbəri vəzifələrini icra edəcək.

### Həftənin İSTEFASI



Rusiya Prezidenti Vladimir Putin "Roskosmos" dövlət korporasiyasının rəhbəri Dmitri Roqozini istefaya göndərib. V.Putin bu barədə sərəncam imzalayıb. Putinin digər bir sərəncamı ilə Yuri Borisov Rusiya Baş nazirinin müavini vəzifəsindən azad edilərək "Roskosmos"un baş direktoru təyin edilib. Qeyd edək ki, 58 yaşlı Dmitri Roqozin 2018-ci ilin mayından bu vəzifədə çalışıb.

✍ *Azad Əliyev*

## TƏBRİK



*Əzizimiz, xalqımızın böyük sənətkarı hamımızın sevimlisi olan Flora Ələkbər qızı Kərimova sizi ad gününüz münasibətiylə ailəmiz və rəhbərlik elədiyim dünya şöhrətli "Qarabağ bülbülləri" ansamblı adından səmimi qəlbdən təbrik edirik, sizə can sağlığı, uzun ömür və xoşbəxt həyat arzulayırıq. Allah sizin məlahətli səsinizi heç vaxt xalqımızın diqqətindən əksik eləməsin.*

***Hörmətlə: SSRİ maarif xadimi, bəstəkar Murad Yunis oğlu Rzayev***


# Bölgələrə daha yaxın! ®

**"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" sloqanı ilə strateji məqsədinə sadiq qalan Azercell bu dəfə də bölgələrdə yaşayan abunəçilərini sevindirir.**

Lider mobil operator iyul ayının 12-dən başlayaraq "Bölgələrə daha yaxın" şüarı altında ölkəmizin müxtəlif regionlarına səfərlər təşkil edərək yerli əhaliyə öz yeni məhsul və innovativ xidmətlərini təqdim edir. Həmçinin bu silsilə tədbirlər zamanı Azercell müxtəlif oyunlar keçirir, abunəçilərini həm yeni təkliflərlə tanış edir, həm də onlara maraqlı hədiyyələr qazandırır. Qeyd edək ki, kampaniya çərçivəsində ilk tədbirlər Xaçmaz və Qusarda baş tutub. Azercell hər zaman olduğu kimi bütün abunəçilərini diqqət mərkəzində saxlayaraq onlara bərabər imkanlar təqdim etməyə çalışır. Kampaniyanın davam etdiyi müddət ərzində izləyicilər şirkətin rəsmi Instagram səhifəsində keçirilən müsabiqədə iştirak edərək hədiyyə internet paketi qazana bilərlər. Odur ki, Azercell-i doğma bölgənizdə gözləyin və onlayn tədbirlərdən də yararlanın!





## GÜNÜN FOTOSU




Bred Pitt qırmızı xalçaya ətəkdə çıxdı

# İran Zəngəzur dəhlizinin açılmasında maraqlı deyil

**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

10 noyabr bəyanatının Rusiyanın maraqlı olmadığı bəndləri sabotaj olunur. ▸▸ Səh. 3

## STATİSTİKA



■ **Bu il iyunun 1-nə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 28,3 min nəfər və yaxud 1,7 % artaraq 1 706 min nəfər olub.**

Onlardan 903,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 802,5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 19,5 %-i təhsil, 18,7 %-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,5 %-i sənaye, 8,2 %-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5 %-i tikinti, 6,6 %-i dövlət idarəetməsi və müdafiə; sosial təminat və digər sahələrində məşğul olub.



▸▸ Səh. 7

# İlk "ağıllı kənd"imizdə həyat başladı...